YÜKSƏK TƏHSİL UĞRUNDA!

# İLAHİYYATÇI

www.ait.edu.az

Təsisçi: Azərbaycan İlahiyyat İnstitutu

Yanvar, 2019-cu il / № 02

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini ehtiramla yad edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.***

*Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 29 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

## "20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib




**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.**

Sərəncama əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.



Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində hazırlıq işləri aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.



### Himayəçilər Şurasının tərkibi təsdiq edilib

Bax: səh. 5

## NAXÇIVAN-95



Bax: səh. 13



### "Gözəl nəsillə maraqlı tədris həyatı yaşayırıq"

Bax: səh. 4

BƏRDƏ İMAMZADƏSİ

### DAŞLARDA DİL AÇAN TARİX

Bax: səh. 9

### Əsirlikdə olan məbədlərimiz

Bax: səh. 12

BEYNƏLXALQ ƏLAQƏLƏR

### Təcrübə mübadiləsi

Bax: səh. 14

### "Tolerantlıq həyatımızın tərkib hissəsidir"

Müsahibimiz "Искренност" jurnalının Baş redaktoru Səfa Kərimovdur

Bax: səh. 12

## QANLI YANVAR

# Ölümün yanından ötüb, ona yoldaş oldum o gecə...

...1990-cı ilin 20 yanvar gecəsinin canlı şahidi kimi danışacam bu gün. Bakı Neftayırma Zavodunun (indiki "Azərneftyağ) "Zavod həyatı" (indiki "İki sahil") qəzetində tərcüməçi işləyirdim. Evimiz "Neftçilər" metro stansiyasının yaxınlığında yerləşirdi. Şəhər özünün qarmaqarışıq həyatını, insanlar isə təşviş və təlaş içində yaşayırdı. Sovet qoşunlarının (guya asayişi qorumaq üçün) Bakıya girməsi söhbəti dolaşırdı. SSRİ prezidenti Mixail Qorbaçovun əmri gözlənilirdi. Xalq narazı idi. Belə qərar veriləcəyi təqdirdə, qoşunun qarşısını kəsməyə və ordunun şəhərə girməsinə mane olmağa çağırışlar eşidilirdi.

Küçələr həyəcanlı insanlarla dolu idi, maşınlar sərnişinləri pulsuz daşıyırdı. Ana və bacıların həşiri, "Oğullarımızı da, özümüzü də tankın qabağına atacağıq, lakin şəhərimizə qoşun girməsinə imkan verməyəcəyik", - dемələri yaxınlaşan təhlükədən xəbər verirdi.

Xalq əliyalın olduğu üçün özü ilə ölümsaçan ordudan bəlkə də insaf, mərhəmət gözləyirdi. Qonşuluğumuzda yaşayan Gülnazın (o da zavodun fəhləsi idi) çağırışları, faciəni bilirmiş kimi harayı ətrafı bürümüşdü: "Qan axacaq, qan olacaq. Qeyrəti olan çölə, tankın, zirehli texnikanın qarşısına çıxsın", - deyirdi.

Bacım Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) I kursunda oxuyurdu. Rayondan təzə gəlmişdi. Şəhərin qaynar həyatına o qədər də öyrəşməmişdi. İstədim qorxmasın. Qış semestr imtahanlarının qurtarmasına az qalmışdı. Astaca dedim: "Sən imtahan materiallarını oxu, mən də gedim görüm nə var, nə yox, bir azdan qayıdacağam". Məni itirməkdən qorxurmuş kimi ağladı, qucaqlaşdıq, görüşdük. Dedim ki, qayıtmasam, anaya de ki, mən qala bilməzdim, axı jurnalistəm. Bir az da zarafata saldım ki, qorxmasın...

...İnsanlar sel kimi axışırdı. Biz "Salyan kazarması" adlanan əraziyə gəldik. Xalq Hərəkatının fəallarından olan Etibar Məmmədov çıxış edirdi. Əksəriyyətin əlində radioqəbuledici, həyəcanla saat 00:00-ı, Qorbaçovun əmrini gözləyirdi. Anidən cavan bir oğlan bizə yaxınlaşıb, hansı təşkilatı təmsil etdiyimizi soruşdu. Cavab verdik. "Bəs siz burada nə gəzirsiz, sizin kollektiviniz Dəniz vağzalındadır, oraya gedin ki, bir şey olsa, meyitləri hərənin iş yerinə təhvil verə bilək". Biz - on bir nəfər qadını mikroavtobusla yola saldılar. Deyilən yerə çatdıqda saat 00:00-ı keçmişdi. Tam sakitlik idi. Səsli-küylü şəhərdən əsər-əlamət yox idi. Maşınımız dayandı və dedik ki, gedək baxaq bəlkə... Sürücü, deyəsən, yaman qorxmuşdu: "Sizin eviniz-eşiyiniz yoxdur? Olan olub, keçən keçib, saat 1-ə 20 dəqiqə işləyib", - dedi və maşına tərəf sürətlə hərəkət etdi. "Hər birinizi öz evinizə aparıram, gəlin".

...Şəhərin Fəhlə prospekti ilə irəlilədikcə, sükutun şahidi olurduq. Səki ilə rus əsgərləri addımlayırdılar. Gəlib "8-ci Kilometr" qəsəbəsinə çatdıq. Nələr gördük...

"Neftçilər" metro stansiyasının üstündə qan su yerinə axırdı. Ana-bacıların səsi ərşə qalxmışdı. "Yavaş keçin, ayaqlamayın, balalarımızın, qardaş-bacılarımzın-müsəlmanlarımızın qanı axır", - deyə fəryad edirdilər.

Qan yaddaşımızı yazdıq, tarixə imza atdıq o gecə. Əliyalın çıxdıq zirehli texnikanın qarşısına. Mərdlik, şücaət göstərdik, ölümün gözünün içinə dik baxdıq, çünki mübarizəni özünə güvənib, öz gücü ilə aparmaq yazılıb alnımıza. Biz qadına, qocaya, uşağa tank qabağına əliyalın çıxana atəş açan millət deyilik. Babəkdən, Cavanşirdən, Koroğludan törəmiş Mübarizik, Ramilik, Fəridik, Vəzirik, İlhamıq, Fərizəyik, Qaratelik... Biz qorxu nədir, bilmərik. Ata-analarımız bizi "Get düşmənin qabağında igid möhkəm dur, gavurun başını əz" - ruhunda tərbiyə edib. Amalımız uğrunda candan keçərik, vüqarımız sınmaz. Biz belə xalqıq.

Ölümün yanından ötüb, ona yoldaş oldum o gecə. Özü məni qəbul etmədi, lap nağıllardakı kimi.

...Evə qayıdanda gecəyarısı idi. Yolgözləyən bacım gözlərimə baxanda dondu: "Nə olub bacı, yaralısan?" - deyə soruşdu. "Bəli, yaralıyam, ürəyimdən vurublar", - dedim. "Şəhər matəm içindədir. Cavanlar, yaşlılar, qızlar, gəlinlər əliyalın çıxıb sovet ordusunun qarşısına. Hamısı da qanına qəltan olub. Şəhərə keşik çəkən daşlar da güllələnib...".

O qətliamdan 29 il ötür. Tarixə qanımızla adımızı yazdığımız o məşum gecədən.

O gecə kimliyimizi təsdiq etdik və güclü xalq olduğumuzu bir daha göstərdik.

**Rəhilə Misirxanlı**

## O GECƏ

*Bəli, yaralıyam, qan ağlayıram,*
*Gör neçə nər igid öldü o gecə.*
*Yollarda qan axır, mən ağrıyıram,*
*Düşmən qırdı bizi, özü də necə...*

* * *

*Köksümüzə tuşladı düşmən silahı,*
*Tarixə bir imza atdıq o gecə.*
*Anaların göyə qalxıb naləsi,*
*Oğullar bir tarix yazdı o gecə.*

**Ruslan Həsənzadə,**
I kurs tələbəsi

# Şəhid ailələri ilə görüş





**On bir yanvar 2018-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunda 20 Yanvar faciəsində qətlə yetirilmiş şəhid ailələri ilə görüş təşkil olundu.**

Öncə 20 Yanvar şəhidlərinin əziz xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə anıldı.

Tədbiri giriş nitqi ilə açan İnstitutun rektoru Ceyhun Məmmədov tarixən ölkəmizdə mövcud olan milli-mənəvi mühitin qorunub saxlanılması, eyni zamanda, dini təhsil sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Prezident cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradıldığını qeyd edib. O bildirib ki, təhsil müəssisəsi gənclərin milli və vətənpərvərlik ruhunda tərbiyə edilməsi, mənəvi dəyərlərin təbliği istiqamətində müxtəlif tədbirlər həyata keçirir.

Xalqımızın qan yaddaşına silinməz faciə olaraq yazılmış 20 Yanvarı milli matəm, hüzn günü kimi qeyd etməyimizə baxmayaraq, bu hadisə, eyni zamanda, xalqımızın tarixində qəhrəmanlıq salnaməsidir. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha sıx birləşdirərək, millətimizin yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mücadilə əzmini bütün dünyaya bəyan etdi.

C.Məmmədov 20 Yanvar olaylarında həlak olmuş şəhid ailələrinin və əlil olmuş insanların daim Azərbaycan Dövlətinin qayğı və diqqəti ilə əhatə olunduqlarını, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması, sosial problemlərinin həlli istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırdı.

O, qeyd etdi ki, ümummilli lider Heydər Əliyev 20 Yanvar faciəsi zamanı şəhid olanların ailələrinə, sözügedən qanlı qırğında əlil olmuş vətəndaşlarımıza diqqət və qayğısını heç zaman əsirgəməyib. Ulu Öndərin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkəmizin azadlığı və müstəqilliyi uğrunda şəhid olmuş və sağlamlığını itirmiş şəxslərin ailələrinə həmişə xüsusi diqqət yetirir.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında bildirib ki, hər il 20 Yanvar faciəsinin qeyd edilməsi barədə tədbirlər planı hazırlanır və bununla bağlı olaraq müxtəlif tədbirlər həyata keçirilir. Deputat bu qan yaddaşımızı qəhrəmanlıq səhifəsi adlandıraraq, xalqımızın müstəqilliyi uğrunda mücadilə əzminin bariz nümunəsi kimi dəyərləndirib. O bildirib ki, həmin dövrdə ulu öndər Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırılmasına baxmayaraq, Moskvadakı Azərbaycan Səfirliyindəki mətbuat konfransında haqq səsini dünyaya çatdırdı.

20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin Olunması İctimai Birliyinin sədri Maral Qocaman sözügedən hadisənin canlı şahidi olduğunu bildirərək, Vətən tarixinə qanlı qırğın kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrində yüzlərlə insanın qətlə yetirildiyini, yaralandığını və itkin düşdüyünü, fövqəladə vəziyyət tətbiq olunanadək hərbi qulluqçular tərəfindən insanların amansızcasına öldürüldüyünü bildirib, Prezident cənab İlham Əliyev tərəfindən şəhid və əlil ailələrinə müavinətlərin verildiyini qeyd edib.

Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, Qarabağ veteranı Səriyyə Cəfərova bu qanlı olayın Azərbaycan xalqının iradəsini, Milli Azadlıq uğrunda mübarizə əzmini qıra bilmədiyini, həmin gecədə şəhid olmuş Azərbaycan oğullarının Vətənin müstəqilliyinə nail olduqlarını diqqətə çatdırıb.

**Aytac Mustafalı,**
I kurs tələbəsi

# "Azadlıq tumunu səpdi"k...

*...Torpağın bağrına cəsədləriylə*
*Azadlıq tumunu əkdi Şəhidlər...*
**Bəxtiyar Vahabzadə**

20 Yanvar - xalqımızın qan yaddaşıdır. 29 il keçməsinə baxmayaraq, dünən olmuş kimi acı xatirəsi yaddaşımızdan silinmir. Həmin gecə xalqımıza divan tutuldu, günahsız insanlar öldürüldü, əsir düşdü. Əliyalın tankın, zirehli texnikanın qarşısına çıxanlar, həmçinin dinc əhali atəşə tutuldu. Ədalətsizlik içimizdə düşmənə nifrət və qəzəblə yanaşı, birlik və bərabərlik hissini alovlandırdı. Məhz bu birliyimiz müstəqilliyimizi qazanmağın qarantı oldu. Biz birləşdik, bütövləşdik, böyüdük, sözümüzü dünyaya çatdırdıq. Tarixə qanıyla imza atan şəhidlərimizi tarixi qəhrəmanlar kimi xalq unutmadı, ürəklərdə yaşatdı. Onların ailələri dövlətin xüsusi qayğısı ilə əhatə olundu. Adları əbədiləşdirildi, küçə, park və meydanlara verildi, abidələri qoyuldu. Bu qətliamın dünyaya çatdırılmasında ilkin addımı məhz ümummilli liderimiz Heydər Əliyev hadisə baş verən günün səhəri Azərbaycanın Moskvadakı Nümayəndəliyində keçirdiyi mətbuat konfransı ilə atdı. Ulu Öndərin bu qırğının faciə, ədalətsiz hücum, hərbi müdaxilə, insan haqlarının pozulması kimi dünyada tanıdılmasında əvəzsiz rolu danılmazdır.

Ümummilli Hüzn Günü kimi anılsa da, bu gün xalqımızın tarixində birlik və haqsızlığa qarşı etiraz, milli azadlıq mübarizəmizin ildönümü günüdür.

İllər ötdükcə hər il bu gün xatırlanacaq, şəhidlərimiz ehtiramla yad ediləcək. Gələcək nəsillər tarix salnaməmizi vərəqləyərkən xalqımızın qanı ilə yazılmış bu səhifəni görəndə düşmənə nifrət edəcək, ayıq olmağa çalışacaq. Məhz bu, biz gənclərin də məsuliyyətini artırır. Bugünü xatırlamalı, anmalı və yaşatmalıyıq.

**Fəridə Hüseynova,**
III kurs tələbəsi

# Qanımızla tarixə imza atdıq

***Bakı - 1990-cı il 20 yanvar... Azərbaycan tarixində növbəti faciəli hadisə XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin təzahürü idi bu qanlı tarix. Sovet rəhbərliyinin dəstəyi ilə başlayan Dağlıq Qarabağ hadisələri, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiya edilməsi isə bu siyasətin mərhələləri hesab oluna bilər.***




Tariximizə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq 29 il keçir. Həmin gün Azərbaycan xalqına qarşı həyata keçirilən hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması sovet imperiyasının süqutu ərəfəsində onun qatil xislətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Sovet ordusunun nəhəng qüvvələrinin - xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə həyata keçirilirdi.

1990-cı il yanvarın 20-də Bakıda baş verən kütləvi qətliamdan bəhs edərkən bu hadisələri Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə erməni separatçıları Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparmış və nəticədə, Azərbaycanın tarixi açıq-aşkar saxtalaşdırılaraq bütün İttifaq miqyasında yayılmışdı.

Ümummilli lider Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra, ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilat olan "Krunk" açıq fəal mübarizəyə başlayaraq, separatçılıq hərəkatını genişləndirdi. 1988-ci il hadisələri başlayanda erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları Dağlıq Qarabağın iqtisadi geriliyini bəhanə gətirərək, vilayətin Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndidə davamlı tətillər keçirərək, kütləvi mitinqlər təşkil etdilər. Bu hadisələrin arxasında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları dayanırdı.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

Nəticədə, sovet rəhbərliyinin ermənipərəst siyasəti 1988-ci ilin sonu - 1989-cu ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

Belə bir şəraitdə öz adi hüquqlarının müdafiəsinə qalxmış xalqımıza qarşı 1990-cı ilin 20 yanvarında yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan xüsusi təlim keçmiş erməni əsgər və zabitləri, eləcə də sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması misli görünməmiş qanlı faciəyə gətirib çıxardı. Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi İttifaq rəhbərliyinin məcburi surətdə müdaxiləsinin nəticəsi idi.

Əlləri xalqımızın qanına bulaşmış qatil M.Qorbaçov başda olmaqla, sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun sovet hərbi qulluqçularının ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, tamamilə saxta bir uydurma idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya xüsusi təlim keçmiş qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11 min 500 əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri, eləcə də 4-cü ordunun komandanlığı Bakıda yerləşirdi.

Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00:00-dək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də Respublika Radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüş - onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4 şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirilmişdilər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatmışdı. Həmin gecə adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələyirdilər; məsələn: Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdu. Xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulur, həkimlər öldürülürdülər.

Bir qrup insan süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var idi. Həmin gecə "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə olunurdu.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdı. Bakıda törədilən cinayətlər qonşu və qardaş Türkiyədə sərt reaksiyalara səbəb olmuş, ölkənin hər yerində mitinq və nümayişlər keçirilmişdi. Ankara, İstanbul, Qars, İzmir, Kayseri və başqa şəhərlərdə keçirilən mitinq və nümayişlərdə sovet rəhbərliyinin törətdiyi bu cinayəti müdafiə edən Amerika Birləşmiş Ştatlarına etiraz bildirilmişdir. Eyni zamanda, Türkiyənin rəsmi şəxsləri, Türkiyə Hökuməti Bakıda törədilən hadisəni tənqid etməklə yanaşı, Azərbaycana yardım göstərilməsi təklifi ilə də çıxış etmişlər.

İranın Milli Təhlükəsizlik Şurası yığıncaq keçirmiş və bu barədə bəyanat qəbul etmişdir. İran Parlamentinin 160-dan çox üzvü M.Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmiş, İran Prezidenti Haşimi Rəfsəncani və İranın dini lideri Əli Xameneyi M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişdilər. Bununla yanaşı, Türkiyə və İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid etmiş və bunu qırğın adlandırmışdır.

Qanlı 20 Yanvar Sovet İttifaqının Azərbaycandakı idarəçiliyinin sonu oldu. Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa edib. Hər il yanvarın 19-20-də Azərbaycan vətəndaşları Vətəni uğrunda dəyərli canlarından keçən həmyerlilərini xatırlayırlar. Dünyada hər bir azərbaycanlının "Qanlı Yanvar" faciəsini xatırlaması və həmin gün canlarından keçənlərin xatirəsini yad etməsi vacibdir.

Həmin faciədə ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmişdir. 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə qanlı 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

**Rəna Həsrətova**

# “Gözəl nəsillə maraqlı tədris həyatı yaşayırıq”

**Prezident cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov AZƏRTAC-ın suallarını cavablandırıb**

*- Ceyhun müəllim, artıq tədris ilinin qış imtahan sessiyasıdır. Görülən işlər, tələbələrin fəallığı Sizi qane edirmi? Hansı yeniliklər gözlənilir?*

- Bildiyiniz kimi, Prezident cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Azərbaycan İlahiyyat İnstitutunun 17 sentyabr 2018-ci il tarixdə açılış mərasimi oldu. Qısa vaxt ərzində institutun formalaşması istiqamətində zəruri tədbirlər həyata keçirildi, tədris ilinə hazırlıq görüldü. Artıq institutda 2018-2019-cu tədris ilinin birinci yarımili yekunlaşıb. Beynəlxalq standartlara uyğun və dövlətin perspektiv tələbləri əsasında təhsilin səviyyəsini təmin etməyə çalışırıq və düşünürəm ki, biz buna qismən də olsa, nail olmuşuq. Tədris prosesində iştirak edən müəllimlər yüksək təhsil almış ixtisaslı alimlər, mütəxəssislərdir.

İnstitut yeni yaradıldığı üçün ilk tədris ilində keçid balı minimum olaraq 150 bal götürülüb. Lakin orta ballara nəzər salsaq, görərik ki, İslamşünaslıq ixtisası üzrə ən aşağı bal göstəricisi 177, Dinşünaslıq üzrə isə 217-dir. Tələbələrlə vaxtaşırı ünsiyyət qururuq, problemləri ilə yaxından maraqlanır, onlara dəstək olmağa çalışırıq. Yüksəksəviyyəli, zəngin dünyagörüşlü mütəxəssislər yetişdirmək üçün bir çox layihə həyata keçirir, diskussiyalar, yarışlar, konfranslar, təlimlər təşkil edirik. İşimizdə dünya və qonşu ölkələrin təcrübəsindən yararlanırıq. İstəyirik ki, tələbələrimiz - gələcəyin ilahiyyatçıları savadlı, kamil mütəxəssislər olmaqla yanaşı, həm də səlist nitq qabiliyyətinə malik mütəxəssislər kimi yetişsinlər. Buna görə də onların öz seminarlarını təşkil edirik. Tələbələrin, valideynlərin və ictimaiyyətin münasibətini nəzərə alıb deyə bilərəm ki, bu çox yaxşı effekt verir. Bəli, din xadimi həm də çox yaxşı natiq olmalıdır.

*- Yeni yaradılmış ali təhsil ocağında, təbii ki, maarifləndirməyə ehtiyac var. Bu sahədə nə kimi işlər görürsünüz?*

- İlk vaxtlar bir az çətinliklərimiz oldu. Amma şükür Allaha, bu gün işimizi zamanın tələbləri səviyyəsində qura bilmişik. İnstitutumuzda maarifləndirmə mövzusunda tez-tez seminarlar təşkil olunur. Buraya müvafiq sahə üzrə alimlər, filosoflar, ilahiyyatçılar dəvət olunur, çıxışlar edir, tələbələri maraqlandıran sualları cavablandırırlar. Bizim beynəlxalq günlərə, ölkə əhəmiyyətli tarixi hadisələrin ildönümlərinə həsr olunan görüşlərimiz olur. Müxtəlif layihələr həyata keçiririk. Bunlardan ən mühümü Ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş layihəmizdir ki, onu Heydər Əliyev İrsini Araşdırma Mərkəzi ilə bu günlərdə sona çatdırdıq. Səfirlərlə “Səfir saatı”, tələbələrimizin “Tələbə seminarları” layihələrini, ölkəmizin tanınmış simaları ilə görüşləri, təlimlər və konfransları davam etdirəcəyik.

*- Uğurlu şüar seçmisiniz: “Yüksək təhsilin yeni ünvanı!”. Tələbələrə yüksək təhsil vermək üçün nələr edirsiniz?*

- Azərbaycan dünyəvi dövlət olduğu üçün burada tədris də dünyəvi mahiyyətdədir. Biz ənənəvi üsullarla yanaşı, dövrün tələblərinə uyğun daha müasir metodlarla tələbələrə dərs deməyə səy göstəririk. Məqsədimiz yüksəkixtisaslı ilahiyyatçı kadrlar yetişdirməkdir. Dinə elmi yanaşırıq və onu elmi əsaslarla, dünya təcrübəsinə uyğun tətbiq edirik. Biz burada din fəlsəfəsi, dinin psixologiyası, sosiologiyası, müqəddəs mətnlər, hind-Çin dinləri, xristianlıq, yəhudilik, müqəddəs kitabların müqayisəli təhlili kimi geniş səpkidə bir tədris həyata keçiririk. İnstitutu bitirən tələbələrin gələcəkdə xarici ölkələrdə təhsillərini müxtəlif istiqamətlərdə davam etdirmələri, xarici dil biliklərini yüksək səviyyədə təkmilləşdirmələri nəzərdə tutulur. Bizim yüksəksəviyyəli dil bilən ilahiyyatçılara ehtiyacımız var ki, onlar bizi xaricdə layiqincə təmsil etsinlər.

*- Xüsusi istedadı ilə seçilən, sabahına inamla baxdığınız fərqli tələbələriniz varmı?*

- Bəli, çox gözəl nəsillə maraqlı bir tədris həyatı yaşayırıq. Tərbiyəli, oxumağa həvəskar gənclərimiz var. Onların potensialını ortaya çıxarmaq üçün həvəsləndirici üsullara əl atırıq. Əvvəlcə utanıb auditoriya qarşısında danışa bilməyən tələbələrimiz bu gün respublika tədbirlərinin iştirakçısı olur, institutumuzu ləyaqətlə təmsil edirlər. Konfranslarda, seminarlarda cəsarətli çıxışları ilə ilklərə imza atırlar. Xüsusi istedadı olan yaradıcı gənclərimiz də var. Onlara meydan vermək, həvəsləndirmək üçün müsabiqə elan etmişik. Qalibləri dilini öyrəndiyi ölkəyə birhəftəlik səyahət və digər hədiyyələrlə mükafatlandıracağıq.

*- Sadaladıqlarınızın hər biri vətənpərvərlik nümunəsidir. Bəs hərbi-vətənpərvərlik tərbiyəsini necə aparırsınız?*





- Hərbi-vətənpərvərlik tərbiyəsini bütün tədbirlərimizdə, dərslərdə, gündəlik təlim-tərbiyə prosesində aparırıq. Torpaqlarımızın 20 faizi işğal altındadır və mən özüm şəxsən o ağrı-acıları dadanlardanam. Doğulduğum bölgə düşmən tapdağı altındadır. Dövlət Bayraq Gününü işğaldan azad olunmuş Cocuq Mərcanlıda keçirdik. Tələbələrimiz gördülər ki, düşmənlə 700 metr məsafədə həyat necə qaynayır. Respublika Prezidentinin təkcə bu kəndin abadlığı üçün verdiyi altı Sərəncam necə icra olunur. Çoxları bunu televizorda görmüş, radiodan eşitmş, KİV-lərdə oxumuşdular. Amma Qarabağın bu bölgəsindən qayıtdıqdan sonra gənclərimizdə düşmənə qəzəb, nifrət, ondan qisas almaq hissinin necə gücləndiyinin şəxsən şahidi oldum.

*- Fəaliyyət proqramınızda xaricə səfərlər də var. Rusiya və Türkiyədə işgüzar görüşləriniz olub. Əməkdaşlıq protokolları imzalanıb. Bu özünü hansı formada göstərəcək?*

- Rusiyanın Perm vilayətində 21-23 noyabr 2018-ci il tarixdə keçirilən konfransda iştirak etdim. Konfrans çərçivəsində burada mövcud olan ali məktəblərlə və Moskva İslam Universitetinin nümayəndələri ilə görüşdüm. Bu görüşlərdə əməkdaşlıq haqqında müzakirələr aparıldı. Yaxın zamanda protokolları imzalamaq üçün Rusiya Federasiyasına da səfərimiz olacaq. Daha sonra 16-22 dekabr 2018-ci ildə Türkiyənin iki şəhərində - Ankara və İstanbulda işgüzar səfərdə olduq, Mərmərə, “29 Mayıs” və Ankara universitetləri ilə əməkdaşlıq protokolları imzalandı. Yaxın günlərdə İstanbul Universiteti ilə də belə memorandumun imzalanması nəzərdə tutulub. Bu protokollara əsasən, hər iki ali təhsil müəssisəsi qarşılıqlı olaraq müəllim-tələbə mübadiləsi həyata keçirə biləcək. Qərara gəldik ki, birlikdə beynəlxalq konfranslar keçirək, sanballı kadrlar yetişdirmək naminə əlimizdən gələni edək. Biz dünya təcrübəsini öyrənərək, Qafqazın ən yaxşı ali təhsil müəssisəsi olmağı qarşımıza məqsəd qoymuşuq. Sivilizasiyaların qovuşduğu məkanda tolerantlığı ilə tanınan Azərbaycan üçün yüksəksəviyyəli ilahiyyatçılar nəsli yetişdirək.

# Himayəçilər Şurasının tərkibi təsdiq edilib



**İyirmi yeddi dekabr 2018-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Himayəçilər Şurası yaradılıb və 7 nəfərdən ibarət tərkibi formalaşıb.**

Şuranın tərkibinə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyev, AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov daxil ediliblər.

27 dekabr 2018-ci il tarixdə Himayəçilər Şurasının ilk iclası keçirilib və təşkilati məsələlər müzakirə olunub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şuranın sədri seçilib.

Məlumat üçün bildiririk ki, Himayəçilər Şurasının səlahiyyətlərinə Azərbaycan İlahiyyat İnstitutunun strateji inkişaf proqramını təsdiq etmək; İnstitutun fəaliyyət istiqamətlərinə nəzarət etmək; elm-təhsil-innovasiya mərkəzi kimi inkişaf etməsinə; fundamental, nəzəri-metodoloji, pedaqoji-metodik və tətbiqi elmi layihələrinin həyata keçirilməsinə; beynəlxalq əlaqələrinin qurulmasına; AİI məzunlarının işlə təmin olunmasına dəstək vermək kimi məsələlər daxildir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb. İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdən ibarətdir.

# *“Vəhdət” sənədli filminin nümayişi*

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 3 dekabr 2018-ci il tarixdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə hazırlanmış “Vəhdət” sənədli filminin nümayişi olub.**



Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə çıxış edən rektor Ceyhun Məmmədov AİI-nin ölkə Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını qeyd edib. Rektor bildirib ki, İnstitutun yaradılmasında əsas məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdir. O, Azərbaycanda ümummilli lider Heydər Əliyevin dövlət-din siyasətinin əsasını qoyduğunu, hazırda bu siyasətin Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirildiyini bildirib. Ölkədə tolerant və multikultural dəyərlərin qorunmasının dövlət-din siyasətinin əsas istiqamətlərindən birini təşkil etdiyini vurğulayan rektor milli-mənəvi dəyərlərin zənginləşdirilməsinə, məscid, kilsə və sinaqoqların inşasına, təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayrıldığını qeyd edib.

Tədbirin əhəmiyyətini vurğulayan İnstitut rəhbəri Azərbaycanda müxtəlif dinlərə məxsus insanların dinc şəraitdə yaşadıqlarını, sünni və şiə məzhəb nümayəndələrinin birlikdə namaz qıldıqlarını Azərbaycanda multikulturalizmin nümunəsi kimi qiymətləndirib. Rektor qeyd edib ki, son illərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hazırladığı bir neçə filmdən biri olan “Vəhdət” dini maarifləndirmə işinə öz töhfəsini verəcək.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bildirib ki, dövlət-din modeli ölkəmizin siyasətində əhəmiyyətli yerlərdən birini tutur. Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onunla mübarizənin hüquqi əsasları barədə məlumat verən natiq qeyd edib ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizə sahəsində maarifləndirmə işlərinin gücləndirilməsidir. S.Heydərov İslam dininin sülh dini olduğunu qeyd edib. O vurğulayıb ki, bəzi qüvvələr öz maraqlarını həyata keçirmək üçün din amilindən istifadə edirlər.

Tədbirdə iştirak edən digər qonaqlar DQİDK-nın sifarişi ilə hazırlanmış “Vəhdət” sənədli filminin əhəmiyyətini qeyd ediblər. Sonda tələbələr Azərbaycandakı məzhəblərarası birliyi və qardaşlığı tərənnüm edən “Vəhdət” sənədli filminin nümayişi ilə bağlı fikirlərini bildiriblər.

✍ **Ayşən Cəbrayılova,**
I kurs tələbəsi

**Məşhur azərbaycanlı din alimləri:**

# Ayətullah Əbülqasim Ordubadi

Ayətullah Mirzə Əbülqasim Ordubadi hicri 1274-cü il cəmadiyüləvvəl ayında (təqribən, miladi 1858-ci il) Ordubadda anadan olub. İbtidai təhsilini öz yurdunda alıb. 1291-ci (miladi 1874-cü il) ildə təhsilini davam etdirmək üçün o dövrün ənənəsinə uyğun olaraq Təbrizə gedib. Təbrizdə 7 il ərzində elmini kamilləşdirib. Sütuh mərhələsini arxada qoyduqdan sonra, Əbülqasim Ordubadi dini elmlərə daha dərindən yiyələnmək məqsədi ilə İraqa gedib, Nəcəf hövzəsinə daxil olub. O, Fiqh, Üsuli-fiqh, Hədis, rical və digər elmləri mənimsəmək üçün öz dövrünün məşhur alimlərindən sayılan Fazil İrəvani, Fazil Ərdəkani, Şeyx Məhəmməd Hüseyn Kazimi və Molla Əli Nəhavəndidən dərs alıb. Əbülqasim Ordubadi, həmçinin Samirə şəhərində Ayətullahülüzma Mirzayi-Şirazinin, Kazimeyndə Ayətullah Məhəmməd Həsən Ali-Yasinin elmi məclislərindən faydalanıb. Bəzi biblioqraflar onun müəllimləri sırasında məşhur əxlaq ustadı, arif Əllamə Molla Hüseynqulu Həmədaninin də adını qeyd edib.

Hədis elmi sahəsində isə onun əsas müəllimi Şeyx Məhəmməd Taha Nəcəf olub. Əbülqasim Ordubadinin ictihad qabiliyyətini Fazil Şərabiyani, Şeyx Zeynülabidin Mazandarani Hairi, Mirzayi-Şirazi kimi alimlər təsdiq ediblər.

Əbülqasim Ordubadi ictihada çatdıqdan və Nəcəf dini elmlər mərkəzində özünü yüksəksəviyyəli alim kimi təsdiq etdikdən sonra hicri 1308-ci ildə (miladi 1809/91-ci illər) Təbrizə qayıdıb və orada şəriətin təbliği ilə məşğul olub. Yeddi ildən sonra (1897/98-ci illər) yenidən Nəcəfə qayıdıb, elmi fəaliyyətini davam etdirib.

Fazil İrəvani, Fazil Şərabiyani və Məhəmməd Həsən Mamaqani kimi müctəhidlər vəfat etdikdən sonra Əbülqasim Ordubadi Nəcəfdə daha böyük şöhrət qazanmağa başlayıb, Azərbaycan və ətraf bölgələrdə onu təqlid edənlərin sayı artıb. Ordubadi öz zamanında baş verən ictimai- siyasi proseslərə, dini mühitdə cərəyan edən hadisələrə vaxtında reaksiya göstərməyə çalışıb. Ordubadi Bakı qazisi Mir Məhəmməd Kərim Mircəfərzadənin “Kəşf əl-həqaiq” təfsirinə, “Molla Nəsrəddin” jurnalına öz münasibətini bildirib (müstəqil risalə və fətva şəklində).

Ayətullah Əbülqasim Ordubadi İslam maarifinin təbliği yönündə durmadan çalışıb. “Əyan əl-şiə” kitabında onun qələmindən çıxan irili-xırdalı 52 əsərin adı çəkilir.

Məşhədə, İmam Rzanın (ə) məzarını ziyarət etməyə gedən Ayətullah Əbülqasim Ordubadi hicri 1333- cü il Şəban ayının 5-də (miladi 1915-ci il iyunun 10-da) yoldaikən Həmədan şəhərində vəfat edib. Oğlu Mirzə Məhəmməd Əli Gərəvi Ordubadi bir neçə ildən sonra onun cənazəsini Nəcəfə apararaq, Həzrət Əlinin (ə) hərəmindəki 22 saylı hücrədə torpağa tapşırıb. Mərhum Ayətullah əl-üzmalar Şeyxəl-şəriə İsfahani və Seyid Hüseyn Qumi, Ayətullah əl-üzma Seyid Əbülqasim Xoyinin atası Seyid Əli Əkbər Xoyi də eyni hücrədə dəfn ediliblər.

✍ **Rəşad Seyfullayev,**
*AİI-nin əməkdaşı*

VƏTƏN VARSA, BİZ DƏ VARIQ

# Ruhlar qovuşanda...

**Şahid səhər-səhər Xəzərin sahilinə baş çəkdi. Mavi sular Nigarın gözlərini xatırladırdı ona...**

Orta məktəb illərindən sevdiyi sinif yoldaşı Nigar, sanki qarşısında dayanmışdı. Dalğalanan ləpələr şahə qalxırdı. Nəbi Xəzri yaradıcılığından çox sevdiyi şeir yadına düşdü, öz-özünə pıçıldadı:

*Dənizi hədiyyə verirəm sənə.*
*Mən dedim, sən baxdın, sən gülümsədin.*
*Göylərin şəfəqi düşdü üzünə,*
*Mən isə göyləri verirəm, dedin...*

Bu şeiri çox xoşladığından, tez-tez söyləyərdi. Nigarla bağlı xoşbəxt xatirələri var idi Şahidin.

Poeziya vurğunu idi o. Hər dəfə bu şeir bəndini pıçıldayanda sanardı ki, gülüzlü Nigarı ilə söhbətləşir.

...Dünən qatardan düşən kimi baş çəkmişdi sevgilisinə. Gülümsər çöhrəsi gözlərinin önündən getmirdi. Söz vermişdi ki, hərbi xidmətini başa vuran kimi toyları olacaq. Hələlik isə Ana Vətən çağırır.

Üzünü mavi səmaya tutub "Göylərin hüdudu yoxdur, Nigar, elə hədiyyə verirsən ki, mənə, səni görməyim də müşkülləşir", - deyə xəyalən Nigarla danışdı.

Şahid zabit idi, məzuniyyətə gəlmişdi. Döyüş səhnələri gözünün önündən getmirdi. Evə gəlincə, sonuncu döyüşə getməmişdən kazarmada yoldaşları ilə zarafatlaşmağı, sonda yoldaşı Samirin "Allah bilir, sabah hansı çarpayı boş qalacaq", - deməsi yadına düşdü. Ertəsi gün elə sahibini gözləyən yataqlardan biri də Samirinki oldu.

Döyüş vaxtı nümunəvi xidmət göstərdiyinə görə Şahidi məzuniyyətə buraxmışdılar. İndi o, şahə qalxan ləpələri seyr etdikcə, müharibənin amansızlığını, dəhşətlərini düşünürdü. Birdən 22 yaşını yenicə qeyd etdikləri kəşfiyyatçı dostunu xatırladı: "Həyatın nə amansız döngələri, dönümləri var imiş, İlahi?! Aman Tanrım, yox, evlənməyəcəm, qayıdıb dostumun qisasını almayınca, sakitlik tapmaram". Duyğuları ləpələrə qovuşub ərşə qalxdı. Üzünə su damcıları çiləndikcə inancları yadına salırdı: "Hə, üzümə nur çiləndi, deməli, getməliyəm, qalib gələcəyik, bu ona işarədir", - deyə öz-özünə qərar verdi...

...Şahid evə döndü. Anası Zümrüd xanım həyətdə əl-ayaq edirdi. Oğlunu görcək dilləndi:

- Bıy, başına dönüm, nə yaxşı gəldin, ay bala. Səhərdən acsan. Nə olub, niyə belə bikefsən? Qəşəng yemək hazırlamışam, sən istəyəndi, yarpaqdolması. Səninçün çox darıxmışam, gələndən üzünü görməmişəm, oğlum. Dost, tanış gəlir, görüşür, söhbətləşirsiz, mən də qonaqlara qulluq edirəm. Gəl, yemək çəkim, sən ye, mən də sənə baxım.



Şahid anasını əzizləyə-əzizləyə onunla mətbəxə keçdi:

- Gəl, gözəl anam, bax, doyunca. Elə bax ki, sonra darıxmayasan. Gedirəm, qala bilmirəm. Gedirəm ki, siz rahat, yaşayasız.

- Niyə, nə olub, ay bala, hara gedirsən, dünən gəlmisən ki?

- Uşaqlarla danışdım. Darıxırlar, mən də öyrəşmişəm, anacan. Hər axşam döyüşdən sonra yeni planlar cızırıq. Yeni əməliyyatımız var, mənsiz keçinmirlər. Qoy düşməni məhv edək, sonra gəlib oturacam yanında, nə desən, onu da edəcəm.

Zümrüd xanım o günü görürmüş kimi nazlandı:

- İnşallah, ay bala, mənim də arzularım var. Ngarımı, gəlinimi istəyirəm. Mən də...

Ananın sözü ağzında yarımçıq qaldı. Divanda mütəkkəyə dirsəklənib dincələn Asəf kişi söhbətə qarışdı:

- Ay oğul, deyəsən, üzünə yaxşı baxmamışıq, hara gedirsən? Biz də valideynik, səni yanımızda görmək, dərdləşmək istəyirik.

- Ay ata, döyüş gedir, yoldaşlarım səngərdədir. Üç gün, beş gün, on gün, axır ki qayıdacam. Samir adlı döyüş yoldaşımı ad gününün səhərisi itirdik. O, mənim dostum idi, ata. Doğrudur, minlərlə əsgərimiz, zabitimiz şəhid olub, itkin düşüb, amma dostum gözümün qabağından getmir. Özümə gələ bilmirəm. Onun qisasını alacam. Vətən bizdən qələbə xəbərini gözləyir. İnşallah ki o xəbərlə qayıdaram.

Valideynləri heyrət və təəccüblə Şahidi dinlədilər. Bir tərəfdə övlad sevgisi, bir tərəfdə Vətən sevgisi. Zümrüd xanım bir az qımıldandı və titrək səslə:

- Şahid, bilirəm, tərssən, dediyindən dönən deyilsən, get, Allah yardımçın olsun. Axır ki...

Asəf kişi yoldaşının sözünə qüvvət verdi:

- Biz sənə mane olmarıq, oğul, get. Çörəyim sənə halal olsun. Cəsarətli olmağın çox yaxşıdır, düşmənin burnunu əz, mənə xoş sorağın gəlsin. Mən sənin adını təsadüfən Şahid qoymamışam ki. Sən qələbənin, uğurun, qəhrəmanlığın Şahidi olmalısan. Tanrıya əmanət ol...

Asif kişi bu dəqiqələrdə oğlunun hərəkətindən qürur duyurdu. Ona bir xeyli nəsihət etdi, xeyir-dua verdi...

Şahidin gözləri sevindiyindən parıldayırdı. O, valideynlərini qucaqladı:

- Mən necə xoşbəxtəm ki, sizin övladınızam. Mən necə xoşbəxtəm ki, sizin kimi valideynlərim var. Şahid ata-anasını bağrına basdı.

Ananın gözləri yaşarmışdı, nəmlənmiş gözlərini gizlətməyə çalışsa da, bacarmadı...

Zabit Şahid Nəcəfov xidmət etdiyi hərbi hissəyə qayıtdı. Yoldaşları onu görcək sevindilər. Axı Şahid cəbhədə ad-san qazanmış döyüşçü, düşmənin qorxulu yuxusu idi. Onun mübarizə əzmi əsgərlərdə vətənpərvərlik hisslərini daha da gücləndirmişdi.

Cəbhədə qızğın döyüşlər gedirdi. Əməliyyat planı hazırlanmışdı. Ordumuz mərkəzdən hücum etməli, düşmən müdafiə olunmaq üçün qoşunu mərkəzə toplamalı, bizimkilər kənar cinahlardan arxaya keçib torpaqlarımızı işğaldan azad etməli idi.

Hücum olacağını ayıq-sayıq kəşfiyyatçılarımız xəbər vermişdilər. Düşmənin həmləsi gözlənilirdi. Ölümsaçan güllələrin səsi, top-tüfənglərin atəşi, zirehli texnikanın qulaqbatıran uğultusu aləmi başına götürdü. Düşmən irəliləyirdi. Cavab atəşi ilə susdurulsa da, erməni faşistlərinin gözünü qan örtmüşdü, mühasirə daralırdı. Birdən Şahidin rəhbərlik etdiyi bölüyü düşmən hər tərəfdən əhatəyə aldı . O əsgərlərinə səsləndi:

- Qorxmayın, zərrə qədər də təlaş keçirməyin. Hamımız sağ-salamat çıxacağıq.

Mühasirə dairəsi getdikcə daralırdı, təhlükə artırdı. Vəziyyətin çətinləşməsinə baxmayaraq, Şahid bir yol tapdı. Elə bir yol ki sonu görünmürdü; elə bir yol ki sonsuzluğa aparırdı. Bu yol Vətənin müdafiəsindən, döyüş yoldaşlarının xilasından keçirdi. Bilirdi ki, yoldaşları bilsə, onunla razılaşmayacaqlar. Odur ki, heç kəsi duyuq salmadan siyasi işlər üzrə müavini Rasimə dedi:

- Anama de ki, hər zaman onunla olacam. Ruhlarımız birdir.

Rasim heyrətdən donmuşdu, nə edəcəyini bilmədi. Şahidinsə gözləməyə imkanı yox idi, "erməni" adında düşmən burunlarının lap ucunda idi. Şahid əsgərlərinə yüksəkdən səsləndi:

- Özünüzdən muğayat olun, Vətən sizə əmanət olsun, siz isə Allaha...

Şahid əlindəki qumbaranın ipini çəkdi və düşmən üzərinə atıldı. Son dəfə səsi ətrafa yayıldı: "Anam, məni bağışla, mən bacardığımı etdim...".

Əks tərəfdən atəşə tutulsa da, qumbaranın partlaması nəticəsində düşmən pərən-pərən oldu... Şahid şəhid oldu.

Erməni faşistər güclü müqavimətlə rastlaşdıqlarından, mərkəzə yönəltdikləri qüvvələrinin külü göyə sovruldu. Yan cinahlardan hücuma keçən ordumuz qalib gəldi. "Horadiz" əməliyyatı uğurla nəticələndi.

Döyüşdən qalib çıxmış həyatın eyni açılmırdı. Əsgərlər şəhid komandirlərinin nəşi ətrafına toplaşıb ona əsgər salamı verirdilər. Kövrəlib danışa bilməsələr də, minnətdarlıqdolu baxışlarla onunla vidalaşırdılar. Böyük vətənpərvər Şahidin cansız vücudu qarşısında baş əyib and içdilər ki, son damla qanlarına qədər vuruşacaq, onun qisasını düşməndən alacaqlar.

...Səhərdən Zümrüd xanımın ürəyi narahat idi. Qapıbacanı suladı, süpürdü, pilləkəndə oturub xəyala daldı. Narahat ana ürəyi düşünürdü: "Görəsən, bu müharibə nə vaxt qurtarar? Oğlum gələrdi, toyunu edərdik. Nigarın qolundan tutub gətirərdik. Mən də qayınana, nənə olardım...".

Eyvana qalxdı. Öz fikirlərində idi: "Güzgünü toz basıb, eynim də açılmır ki, bunu silim. Ayıbdı, biri görsə, adama nə deyər". Əsgini əlinə alıb aynaya çəkmşdi ki, güzgü qopub çilik-çilik oldu. Halı dəyişdi, dizləri əsdi: "Səhərdən ürəyim elə buna görə təlaşla döyünürmüş. Yuxumu da qarışdırmışdım. Allah xeyirə calasın. Güzgünün sınması heç də yaxşı əlamət deyil. Görəsən, balam necədir? Səhər "Xəbərlər"də dedilər ki, bizimkilər qalib gəliblər. Şükür Allaha".

Zümrüd ananı qapının döyülməsi xəyalından ayırdı. Ana qapıya yaxınlaşıb, gözlükdən çölə baxdı. Hərbi çinli insanların dayandığını görüncə, "Bıy, yəqin balamdı gələn", - düşünüb qapını açdı.

İçəriyə hərbi geyimli zabit daxil oldu. Zabit suçlu kimi ananı salamladıqdan sonra, onu bağrına basdı. Ana hələ də nə baş verdiyini anlamırdı. Zabitin boğazı qəhərlənmişdi, deyəcəklərini söyləyə bilmirdi. Gücünü toplayıb dilləndi:

- Şahid dedi ki, anama söylə: hər zaman onunla olacam. Bir də dedi ki, ruhlarımız həmişə qovuşacaq...

Ananın fəryadı ərşə qalxdı. Onu sakitləşdirməyə çalışırdılar. Rasimin dili açıldı:

- Anacan, Şahid hamımızın əzizidir. Onun üçün ürəyimiz, yer, göy də qan ağlayır. Oğlunuz elə bir qəhrəmanlıq nümunəsi göstərib ki, Vətən onu heç zaman unutmayacaq...

Şahid Azərbaycan Bayrağına bürünüb, öz ayağı ilə gəlmişdi ananın görüşünə. İzdihamla həyətə daxil olan əsgərlər cənazəni yerə qoydular.

Asəf kişinin göz yaşları ürəyinə axırdı, özünü tox tutmuşdu. Hıçqıra-hıçqıra bunları söyləyə bildi:

- Oğul Vətən üçün doğulur. Mən elə oğul böyütmüşəm ki, o, şərəf nümunəsi kimi, Azərbaycanımız uğrunda qəhrəmanlıqla həlak oldu...

Əsgər və zabitlər, tökülüşüb gələn el- camaat Şahidlə vidalaşmağa başladı; təkcə Nigar görünmürdü... O gəlməmişdi. Nigarın bu dəqiqələrdə bağrı qan ağlayırdı:

Bir ağacda iki budaq olaydıq,
Bir budaqda iki yarpaq olaydıq,
Öləndə də birgə torpaq olaydıq...

Ay Şahid-deyə...

Şahid Nəcəfov ölümündən sonra fəxri ada layiq görüldü. Ailəsi dövlətimizin qayğısı və diqqəti ilə əhatə olundu. Bircə mükafatımız qalıb - o da torpaqlarımızın azad olunacağı haqqında böyük xəbəri eşitmək...

Yalnız onda Şahidlərin ruhu sakit uyuyacaq. İnşallah, o gün uzaqda deyil...

**Fərid Qasımzadə,**
I kurs tələbəsi

# İsveçrəli alimlə görüş



**Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 7 noyabr 2018-ci il tarixdə "Dinlərin akademik tədqiqi: fənlərin müqayisəli təhlili" mövzusunda seminar keçirilib.**

Aİİ-nin prorektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, İnstitutda ənənə halını almış müxtəlif mövzularda keçirilən seminarların, "dəyirmi masa"ların maarifləndirmə məqsədi daşıdığını və bu görüşlərin cəmiyyətdə maraqla qarşılandığını bildirib. A.Şirinov isveçrəli alimi tədbir iştirakçılarına təqdim etdikdən sonra, dinin akademik tədqiqinin həm Şərqdə, həm də Qərbdə hər zaman aktual olduğunu bildirib.

İsveçrənin Friburq Universitetinin İctimai elmlər və dinlərin tədqiqi şöbəsinin Baş müəllimi, dosent Ansqar Jodik "Dinlərin akademik tədqiqi: fənlərin müqayisəli təhlili" mövzusunda məruzə ilə çıxış edib. Aİİ-nin bölgədə dinlərin tədqiqinə böyük töhfələr verəcəyinə əminliyini ifadə edən alim Qafqazda belə bir İnstitutun yaradılmasının xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb. A.Jodik məruzəsində dini tədqiqatlar haqqında dolğun məlumat verərək, sözügedən sahənin müxtəlif dillərdə fərqli formalarda adlandırıldığını tədbir iştirakçılarının nəzərinə çatdırıb. Dinlərin müqayisəli təhlilindən danışan alim bu tədqiqatlara hansı baxış bucağından nəzər yetirildiyinin əhəmiyyətini bildirərək, bu faktora yanaşma yollarından bəhs edib. O bildirib ki, XIX-XX əsrlərdə dinlər akademik formada araşdırılıb və bu tədqiqatların müsbət və mənfi tərəfləri var.

A.Jodik XIX-XX əsrlərdə yaşamış bir çox tanınmış alimlərin tədqiqatları haqqında danışdıqdan sonra, həmin dövrdə nəşr olunan müqayisəli dinlər barədə kitabların nəşr edildiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb. Alim dinin fəlsəfəsi, sosiologiyası, psixologiyası, fenomenologiyası və antropologiyası haqqında bilgilərlə seminar iştirakçılarını məlumatlandırıb.

Seminar mövzu ətrafında müzakirələrlə davam etdirilib.

**Səminə Məmmədova,**
I kurs tələbəsi

Tələbə seminarları

# Həyata tələbə baxışı



**Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 7 dekabr 2018-ci il tarixdə "Tələbə seminarları" layihəsi çərçivəsində birinci kurs tələbəsi Fərid Qasımzadənin təqdimatında "Həyata tələbə baxışı" mövzusunda seminar təşkil olunub.**

Aİİ-nin əməkdaşı Emin Orucov seminar iştirakçılarını salamlayıb və söz Aİİ-nin rektoru Ceyhun Məmmədova verilib. Rektor tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi istiqamətində İnstitutun müxtəlif mövzularda seminarlar, "dəyirmi masa"lar, treninqlər və görüşlər keçirməsinə xüsusi önəm verdiyini bildirib. İstedadlı və bacarıqlı tələbələrin üzə çıxarılması, bilik səviyyələrinin, bacarıq və imkanlarının nümayiş etdirilməsi baxımından seminarların əhəmiyyətli olmasından danışıb. Rektor qeyd edib ki, Aİİ-nin belə layihələri təşkil etməkdə məqsədi tələbələri elmi fəaliyyətə istiqamətləndirmək, bu yöndə onların fəallığına nail olmaqla tələbə mərkəzli təhsil müəssisəsi yaratmaqdır.

İnstitut rəhbəri bu cür seminarların tələbələrin nitq mədəniyyətinin formalaşmasında, ictimai əhəmiyyətli fikirlərinin zənginləşdirilməsində xüsusi rol oynadığını vurğulayıb.

Aİİ-nin birinci kurs tələbəsi Fərid Qasımzadə "Həyata tələbə baxışı" mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, ilahiyyatçı kimi formalaşmalarında Aİİ-nin rəhbər və müəllim kollektivinin böyük dəstəyi vardır. Tələbənin ehtiyac duyduğu qayğı və diqqətin hər zaman hiss edildiyini söyləyən F. Qasımzadə şəxsi inkişafa qoyulan "sərmaye"ni daim artırmağın vacibliyini diqqətə çatdırıb. O bildirib ki, tələbələrin qarşısında duran əsas meyarlardan biri zamanı doğru dəyərləndirmək, vətənpərvər olmaq, dövlət-din siyasətini dərindən dərk etmək və müasir dünyagörüşünə malik ilahiyyatçılar kimi formalaşmaqdır.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

# Azərbaycan İlahiyyat İnstitutunun tələbələri Avropa və Gürcüstan yəhudilərinin sinaqoqunda olublar





**İlahiyyat İnstitutunun (Aİİ) tələbələri 3 dekabr 2018-ci il tarixdə Azərbaycan Avropa və Gürcüstan yəhudilərinin sinaqoqunda həftəlik "Şabat" mərasimində iştirak ediblər.**

Aİİ rektoru Ceyhun Məmmədov tələbələrə Azərbaycanda yaşayan yəhudilər haqqında ümumi məlumat verib. O qeyd edib ki, Azərbaycan həmişə müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı, tolerantlığın yüksək səviyyədə qorunduğu ölkə olub. Vurğulanıb ki, Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti bu gün Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Belə ki, ölkəmizdə bir çox dini ibadət ocaqları təmir və ya bərpa olunur, yeni dini təhsil müəssisələri yaradılır, dövlət dini qurumlara mütəmadi maliyyə vəsaiti ayırır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət göstərir.

Aİİ tələbələri həftəlik "Şabat" mərasimini izlədikdən sonra, Gürcü Yəhudilərinin Dini İcmasının ravvini yəhudiliyin inanc və ibadətləri, tolerantlıq və multikulturalizm kontekstində Azərbaycanda fərqli dinlərə etiqad göstərənlərin birlikdə yaşama təcrübəsi mövzularında gənclərin suallarını cavablandırıb.

Aİİ tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən, fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlərini davam etdirir.

Azərbaycan İlahiyyat İnstitutunda İslamla yanaşı, Azərbaycanda yaşayan digər dinlərin nümayəndələrinin mədəniyyətləri ilə bağlı araşdırmaların aparılması, gələcəkdə yəhudilik və xristianlıqla bağlı ixtisasların açılması planlaşdırılır.

**Gülnar Quluzadə**

# "Varlıq nuru - Hz. Peyğəmbərimizə məhəbbət"



**Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 9 yanvar 2019-ci il tarixdə "Tələbə seminarları" layihəsi çərçivəsində birinci kurs tələbəsi İsgəndər İsgəndərovun təqdimatında "Varlıq nuru - Hz. Peyğəmbərimizə məhəbbət" mövzusunda seminar təşkil olunub.**

Prorektor, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov Aİİ-də mütəmadi olaraq müxtəlif mövzularda "Tələbə seminarları" layihəsi çərçivəsində keçirilən seminarların təqdirəlayiq olduğunu vurğulayıb. O qeyd edib ki, bu tipli seminarlarda tələbələrin aktiv iştirakı bilik səviyyələrinin artırılmasında, nitq mədəniyyətinin formalaşmasında, xüsusi rol oynayır.

Tələbə heyətinin iştirak etdiyi seminarda İsgəndər İsgəndərov "Varlıq nuru - Hz. Peyğəmbərimizə məhəbbət" mövzusunda məruzə ilə çıxış edib. O, Məhəmməd Peyğəmbərin təvazökar və sadə olduğunu qeyd edib. Bildirib ki, Peyğəmbərimiz ömrünün 23 ilini insanlara İslamın əsaslarını çatdırmağa, islam əxlaqının təbliğinə həsr edib, peyğəmbərə məhəbbət bəşəriyyətə - canlı və cansız bütün varlıqlara sevgi ilə yanaşmaqdan başlayır.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

**Aydan Babazadə,**
I kurs tələbəsi

# Qəbələ

# antik dövrün yadigarı...

**Azərbaycanın qədim yaşayış məskənlərindən olan Qəbələ zəngin və çoxəsrlik bir tarixə malikdir. 1959-cu ildə burada aparılan arxeoloji qazıntılar nəticəsində antik dövrə aid əşyalar bu ərazilərdə yaşayış olduğunu sübut edib. Məlum olub ki, Çuxur Qəbələ kəndinin həndəvərində antik dövrdə Qəbələ şəhəri mövcud olub. Qafqaz dağlarının ətəklərində, Qaraçay və Covurluçay arasında geniş təpədə yerləşən qədim Qəbələ V əsrə qədər Albaniyanın paytaxtı kimi tanınıb. Alban arşakilərinin iqamətgahı, alban arxiyepiskopunun qərargahı da burada yerləşib.**

Göründüyü kimi, Qəbələ qədim tarixə malikdir. Şəhərdə müdafiə təyinatlı qədim qüllə (IX-XI əsrlər), XVIII əsrə aid edilən məscid, İmam Baba Məqbərəsi (XVIII-XIX əsrlər), Cümə məscidi eləcə də Tarix-Diyarşünaslıq Muzeyi var.

Azərbaycan İlahiyyat İnstitutu kollektivinin qədim məbədlər və muzeylər diyarına səyahəti Qəbələ rayonuna idi.

Kollektiv Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov və İnformasiya təminatı və təhlil sektorunun müdiri Zahir Kərimovla birlikdə şəhərin mərkəzindəki Heydər Əliyev parkına gedərək, dahi rəhbərin xatirəsini ehtiramla yad etdi, abidəsi önünə tər çiçək dəstələri düzdü.

Sonra Qəbələ şəhər məscidini ziyarət etdik. Dini məbədgahda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizə qayğısını əks etdirən fotoguşə ilə tanış olduq. Qəbələ Şəhər Yeni Məscidinin İmamı Laçın Ağalarov bizə məlumat verdi ki, burada eyni vaxtda 450 kişi, 150 qadın olmaqla, ümumilikdə 600 mömin ibadət edə bilir. Məscidin divarlarına müqəddəs Qurani-Kərimdən surələr yazılmış, sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq arxitekturasının nadir nümunələrindən istifadə olunmaqla dini rəmzlərlə bəzədilmişdir. Məscidin həyətində axund otağı, dərs, kitabxana, mərasim, qadın və kişilər üçün dəstəmaz otaqları və digər köməkçi tikililər inşa olunub.



Öyrəndik ki, qəsəbədə iki məscid, üç kilsə var.

Dünyada yaşayan udilərin sayı on minə yaxındır. Altı mindən çox əhalisi olan Nic qəsəbəsində dörd mindən artıq udi yaşayır. Qəsəbədə udilər öz dillərini, dinlərini, adət-ənənələrini 2500 ildir qoruyub saxlayırlar. Udi dili Qafqaz dil ailəsinə mənsubdur.

Daha sonra qəsəbədə yerləşən canlıdırlar.

Nic qəsəbəsində "Orayın" Udi Mədəniyyət Mərkəzi fəaliyyət göstərir.

Rayonun Nic qəsəbəsi ilə tanışlıqdan sonra Qəbələ Rayon Mədəniyyət Mərkəzində "dəyirmi masa" təşkil olundu. Giriş nitqi ilə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova qonaqları salamladı. Azərbaycan İlahiyyat İnstitutunun



"Cotari" Alban-Udi Kilsəsini ziyarət etdik. Kilsə qədim tarixə malikdir. Onun haqqında bizə Alban-Udi Xristian İcmasının sədri Robert Mobili məlumat verdi.

Sonra Alban Udi Ocağını ziyarət etdik. Ocağın həyətində antik dövrdən qalmış bir çox əşyalar mövcuddur. Kilsənin yerləşdiyi binanın ilk sakinlərinin mum heykəlləri o qədər sənətkarlıqla hazırlanıb ki, ilk baxışda düşünürsən ki,

rektoru Ceyhun Məmmədov çıxış edərək vurğuladı ki, Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən qoyulub. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan İlahiyyat İnstitutu haqqında ümumi məlumat verən rektor təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını qeyd etdi. Natiq bildirdi ki, İnstitut keyfiyyətli tədrislə yanaşı, tələbələrin inkişafına, uğurlu gələcəklərinin qurulmasına, hərtərəfli şəxsiyyət kimi yetişmələrinə xüsusi önəm verir. Təhsil müəssisəsində keçirilən bütün tədbirlərin başlıca məqsədi tələbələrin intellektual və mənəvi baxımdan inkişafını təmin etməkdir. Nic qəsəbəsinə ziyarət də bu baxımdan xüsusi önəm daşıyır. Gənclərimiz Azərbaycanda yaşayan bütün azsaylı xalqlar kimi, udilərin də mədəniyyətinin, adət və ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi üçün böyük tədbirlərin həyata keçirildiyinin canlı şahidi olurlar. Nic qəsəbəsi dünyada udilərin kompakt şəkildə qərarlaşdığı yeganə yaşayış məskənidir. Ona görə də bu gün tələbələrimizi bura tariximizlə əyani tanış olmağa gətirmişik.

Qəbələ Rayon Təhsil şöbəsinin müdiri Arifə Bayramova, jurnalist Qüdrət Səmədov çıxış edərək bu ekskursiyanın məhz Azərbaycanın qədim şəhərinə təşkil edilməsini müsbət qiymətləndirdilər və məmnun olduqlarını bildirdilər. Rayonda multikulturalizm və tolerantlığın yüksək səviyyədə olmasından, buna əyani sübut kimi Nic qəsəbəsində gördüklərimizi nümunə gətirdilər. Zaman-zaman formalaşan birgəyaşayış udi, ləzgi, avar, saxur və digər azsaylı xalqların azərbaycanlılarla qohumluq əlaqələrinə də səbəb olub, bir-birlərinə qız verib, qız alırlar. Dini bayramlarda qaynayıb-qarışır, bayramlaşırlar.

Tələbələrdən Fərid Qasımzadə, Tural İbrahimli, Ayşən Cəbrayılova, Nərmin Allahverdiyeva, Bəhmən Əsədli, Fəridə Hüseynova, Aytac Mustafalı, Cavid Ərəbov, Dünya Yolçuyeva, Toğrul Nadirov, İlahə Qaragözova, Nəbi Məmmədov, Məhəmməd Qurbanov, Səminə Məmmədova, Mirhakim Sadıqov, Mehrab Dəmirzadə çıxış edərək, bu şəraiti yaradanlara minnətdarlıq etdilər. Gənclər Nicdə gördüklərindən heyrətləndiklərini, tarixə səyahət etdiklərini və bu səfərin onların dünyagörüşünün formalaşmasında böyük iz buraxacağını vurğuladılar.

Bu da növbəti uğurumuz olaraq yadda qaldı. Cocuq Mərcanlıya səyahətimiz tarixi bir məqam kimi yaddaşlara köçüb. Noyabr ayında düşmənin 700 metrliyində cəbrayıllıların necə böyük sevgi və torpağa məhəbbətlə qurub-yaratdıqlarının şahidi olduq. Tələbələrimizdə düşmənə nifrət və qəzəbin artdığını, vətənin müsəlləh əsgəri olmağa necə söz verdiklərini gördük. Bu, böyük vətənpərvərlik nümunəsi idi.

Bu dəfə də avtobus konfrans zalını xatırladırdı. Yenə rektor i.f.d. Ceyhun Məmmədov tələbələri tariximizə səyahət etməklə sual-cavab edir, biliklərini üzə çıxarırdı. Çox maraqlı məqamlar vardı: Aytac Əhmədzadə, Fərid Qasımzadə, Ayşən Cəbrayılova Qəbələ rayonu, alban məbədləri, Nic qəsəbəsinin tarixi, udilər haqqında maraqlı tarixi faktlar söylədilər. Əlavə etdilər ki, səfəröncəsi araşdırma aparıb çoxlu mütaliə ediblər. Deməli, atılan addımlar doğrudur, səmərə verir və institutumuz yeni olsa da işini müasir səviyyədə qura bilib.

**R.İsmayılqızı**

# BƏRDƏ İMAMZADƏSİ

# DAŞLARDA DİL AÇAN TARİX



Üç min ildən çox yaşı olan Bərdə qədim dövrdə bu bölgədə salınan ilk şəhər olub. Aran ölkəsinin paytaxtı kimi maraqlı tarixə malikdir. Bərdənin şəhər kimi formalaşmasında Böyük İpək Yolunun üstündə yerləşməsi həlledici rol oynayıb. Ərəb tarixçisi Təbəri yazıb ki, Şərqdə Bağdaddan sonra ən qədim, gözəl və əzəmətli şəhər Bərdədir.

Tarixi mənbələrdə göstərilən məlumatlarda bildirilir ki, VIII-IX əsrlərdə və sonrakı yüzilliklərdə mömin müsəlmanlar İslam dinini başqa xalqlara qəbul etdirmək üçün müxtəlif ölkələrə köçərək yurd salıb, islami dəyərləri izah və təbliğ ediblər. Görünür, 677-735-ci illərdə yaşamış beşinci imam Məhəmməd Bağırın qız nəvəsi İsmayılın Bərdədə məskən salması və burada dəfn olunması bununla bağlı olub. Onun üçüncü oğlu İbrahim isə 739-cu ildə Gəncədəki məşhur Göy İmamzadədə dəfn edilib. Ancaq Bərdə İmamzadəsinin tarixi bununla bitmir. Əsrlər keçdikcə, bu tarix daha da zənginləşib..

İmam övladının bu şəhərdə dəfn olunması buranı müqəddəs ziyarətgaha çevirib. Ətraf bölgələrdən gələnlərlə birgə hər il buranı minlərlə müsəlman ziyarət edir.

XII əsrdə İbrahim adlı varlı tacir müqəddəs məzara xalqın böyük inam və etiqadını gördükdən sonra öyrənib ki, burada imam övladı uyuyur. Ona görə də öz pulu ilə məzarın üstündə çay daşlarından türbə tikdirib. O zaman ziyarətçilər müqəddəs məbədin başına dolanıb öz istək və arzularının çin olmasını iltimas eləyiblər. Birgünbəzli, dördminarəli İmamzadə Azərbaycan Respublikasının Ensiklopediyasında " Tacir İbrahim Türbəsi" kimi qeyd olunub. Əlbəttə, tacir İbrahimin xidməti yüksək qiymətləndirilməlidir, amma daha düzgün olardı ki, İmamzadə rəsmi sənədlərdə və yazılı mənbələrdə də orada dəfn olunan mömin adı ilə qeyd olunsun.

İİmamzadənin bugünümüzə abad gəlib çatmasında bir çox şəxslərin də əməyini qeyd etmək vacibdir. Belə ki, dövrünün dərin təfəkkürlü ziyalısı və memarı, əslən Şuşadan olan Kərbəlayi Səfixan Qarabaği 1868-ci ildə Bərdə və Ağdam məscidlərini səliqə ilə bərpa edib, bunlardan əvvəl isə 1864-cü ildə Şuşadakı Gövhər ağa məscidini tikdirib.

On üç əsrdir ki, Qarabağ bölgəsində xalq arasında nüfuz qazanmış şəxslər, böyük mənsəb sahibləri, xanlar və bəylər, mömin adamlar yüksək şərəfə layiq görülərək, İmamzadənin yaxınlığında dəfn olunublar. İran hökmdarı Ağa Məhəmməd Şah Qacarın sülaləsindən olan tarixçi və dövlət xadimi Bəhmən Mirzə Qacar imam nəvəsinin məzari-şərifinin yaxınlığında dəfn olunub. Tarixi faktlara görə Bəhmən Mirzə İran şahı Fətəli Şahın oğlu Abbas Mirzənin oğullarından biridir. O, " Şükürnameyi-Şahənşah" və "Təzkireyi- Məhəmməd Şah" əsərlərinin müəllifidir. Bəhmən Mirzə 1834-cü ildə Tehranı, 1835-ci ildə İraqi-Əcəmi, 1836-cı ildə Kaşanı, 1841-ci ildə Yəzdi, 1842-ci ildə isə Cənubi Azərbaycanı idarə edən, böyük dövlətçilik təcrübəsinə malik tarixi şəxsiyyət olub. 1848-ci ildə baş vəzir Hacı Mirzə Ağasının fitnəsi ilə qardaşı Ağa Məhəmməd Şahın yanında gözdən salınaraq həyatı təhlükəyə düşür. Naibüs-səltənə rütbəsi olan Bəhmən Mirzə əvvəlcə Tiflisə gəlir, ancaq daimi yaşamaq üçün Bərdəni seçir, lakin sonralar Şuşaya köçür. 1880-ci ildə özünə Bərdə İmamzadəsində türbə tikdirir və oğullarına tapşırır ki, dünyadan köçəndə onu müqəddəs ocaqdakı həmin karvansara türbəsində basdırsınlar. Dörd il keçəndən sonra onun vəsiyyəti həyata keçir.

Indi Bərdədəki Böyük Qacar və Baba Qacar kəndləri ehtimala görə onun törəmələri tərəfindən salınıb və onların adı ilə adlandırılıb. İmamzadədəki qəbirlərdən birində Qarabağ xanlığını yaradan Pənahəli xanın bacısı, Cavad xanın həyat yoldaşı Bəyimxanım, Sarıcalı Məhəmməd bəy, böyük mülkədar və tarixi " Qarabağnamələr" əsərinin müəlliflərindən biri olan Əhməd bəy Cavanşir burada əbədiyyətə qovuşublar. Ətraf bölgələrdə, xüsusilə, Ağcabədi rayonunun Boyat kəndində yaşayan adlı-sanlı adamlar öz vəsiyyətlərinə uyğun olaraq, İmamzadə ətrafındakı qəbiristanda torpağa tapşırılıblar.

Sovet hakimiyyəti illərində məscidlər bağlandı, dinə ibadət və müqəddəs yerləri ziyarət etmək qadağan edildi. Din xadimləri tutulub ya güllələndilər, ya da zindanlara salınıblar. Bərdə İmamzadəsinin qüdrətinə inanan imanlı insanları onu ziyarətdən qoruya bilmədilər. Nə qədər ateist təbliğat aparılsa da, xalq dinə inamını itirmədi, qoruyub saxladı.

Kommunist rejimin qadağalarından sui-istifadə edən ermənilər İmamzadədəki qiymətli daş kitabələrin əksəriyyətini yoxa çıxarıb, bəzilərinin üstündəki ərəb və fars dilində yazılmış mətnləri pozublar. Hətta erməni arxeoloqları və ustaları Nüşabə qalasını guya bərpa etmək istərkən qalada erməni izləri qoymağa çalışıblar.

Sovet rejimi hər yerdə müqəddəs ziyarətgahları, o cümlədən, İmamzadəni adi qəbiristanlığa çevirmək siyasəti yeridərək, oranı adiləşdirməyə cəhd göstərib, kütləvi dəfnlərə icazə verib.

70 illik sovet dönəmində burada təmir, bərpa və abadlıq işlərinə o qədər də əhəmiyyət verilmədiyindən bəlkə də tariximizin dərin qatlarından xəbər verə biləcək qəbirüstü yazılar, daş kitabələr sıradan çıxıb və ya ermənilər oğurlayıb aparıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Respublika Prezidenti yanında Bilik Fondu yaradıldı. Bərdə İmamzadəsinin abadlaşdırılması gündəmə gətirildi və Bilik Fondunun dəstəyi ilə reallaşdı.

İmamzadə kompleksinin təmiri, bərpası və abadlaşdırılması itməkdə olan tariximizin bir səhifəsinin bərpası idi. Bu abidələri qorumalı, bərpa etməliyik. Onlar tariximizi minilliklərlə yaşadacaqdır.

**Vəli İlyasov,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" media mükafatı laureatı*



# Zamanla səsləşən ilahiyyatçılar yetişdirək

## İlahiyyatçı kadrların hazırlıq səviyyəsi haqqında bəzi mülahizələr

**Hər bir ilahiyyatçı dini sahədə akademik tədqiqatlar aparmaqla yanaşı, həm də xalq kütlələri ilə işləməyi bacarmalı, sağlam maarifləndirmə işinə xidmət edən təşviqatçılıq bacarığı ilə seçilməlidir.**

Dinə akademik, metodoloji üslubda yanaşmaq zərurəti həm dinin məzmunundan, həm də dövrün zəruri ehtiyacından irəli gəlir. Dinin məzmunundan irəli gəlir o mənada ki, bütün sahələr kimi, din də özünə ixtisaslı-professional yanaşma tələb edir. Din həyat tərzidir, sosial-siyasi, mənəvi-əxlaqi və iqtisadi, həm də məişət sahələrinə münasibətdə insanın dünyagörüşünü formalaşdıran başlıca amillərdən biridir.

Zəmanə də dinə elmi-akademik münasibət bəsləməyi zəruri edir. Dövr dəyişir, yeni münasibət və təzahürlər özünü göstərir, nəticədə, həm dinin daxilindəki yenilənmə və inteqrasiya, həm də həlletmə imkanlarının potensiail səviyyədən kinetik səviyyəyə keçməsi labüd hala gəlir. Əks halda, dini nöqteyi-nəzərlərin marjinal səciyyə kəsb etməsi qaçılmaz olacaqdır.

Din adından danışan və dini fəaliyyətin icraçısı sayılan şəxslərin ixtisaslı kadrlar olması İslamın həm bütün aydınlığı ilə cəmiyyətə təqdim edilməsinə, həm də xurafat elementlərindən təmizlənməsinə səbəb olacaqdır. Sağlam təbliğat və təşviqatın, deməli, ziyanın, biliyin, maarifin olduğu yerdə cəhalət quyruğunu qısıb boynunu bükəcək, fanatizm və radikalizm meyilləri əhəmiyyətli dərəcədə azalıb cəmiyyətə təsirsiz həddə enəcəkdir.

Bununla yanaşı, din sahəsində akademik-elmi araşdırmalar aparan şəxslərin xalqın dini maarifləndirmə işinə xidmət etməməsi həmin şəxslərin dini-ictimai həyatdan təcridinə səbəb olur, onları quru, bəlkə də, ölü akademik üslubla yanaşan passiv bilik daşıyıcılarına çevirir. Elə etmək lazımdır ki, ilahiyyatçı kadr akademik tədqiqatlarla yanaşı, xalqa səslənən, onun maariflənməsində yaxından rol oynayan təşviqat fəaliyyətinə sahib olsun. Əks halda, ondakı biliklər rəfdə saxlanılan, xəstəyə təqdim edilməyən dərmanı xatırladacaq.

Elmi yanaşma ilə müvazi şəkildə xalqla işləməyi bacarmaq indiki dövrdə isə Xeyrəddin Qaraman, Ramazan əl-Buti, Yusif əl-Qərdavi, Ayətullah Fəzlullah ola bilməkdir.

Unutmaq olmaz ki, dini sahə çox həssasdır, odur ki həm qələmi, həm də dili ilə bu sahənin ənginliklərinə dalan, yazıları və çıxışlarında yol göstərən, yaşadığı yerin dini konyukturasına sağlam şəkildə formalaşdıran bacarıqlı mütəxəssislərə ehtiyac vardır.

Akademik araşdırmalarla məşğul olub dini təbliğat və təşviqat işinin bu və ya digər formasından uzaq ilahiyyatçı tibbə dair qalın nəzəri kitab qələmə alan, amma yanına gəlmiş qızdırmalı xəstəyə lazımi dərmanı yaza bilməyən həkimə oxşadığı kimi, dini ixtisas səviyyəsində bilməyən, amma minbərləri əldən vermək istəməyən moizəçilər də verdiyi dərmanların müalicəvi xüsusiyyətlərinə bələd olmayan ara həkimini xatırladır.

**Elvüsal Məmmədov,**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri

**Tariximizin ən şərəfli, həmçinin ağrılı və acılı mərhələlərindən birini Azərbaycan Xalq Cümhuriyyəti dövrü təşkil edir. Bütün daxili və xarici təzyiqlərə baxmayaraq, 1918-ci il may ayının 28-də elan edilən və cəmi 23 ay ömür sürən Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə böyük işlər gördü, özündən sonra zəngin mədəni və mənəvi irs qoydu.**

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra, Xalq Cümhuriyyətinin maddi və mənəvi irsinə diqqət artırıldı, həmin dövrün tarixinin öyrənilməsi istiqamətində ciddi addımlar atıldı. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uzaqgörənliyi ilə davam etdirilir.

2017-ci il may ayının 16-da "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında", 2018-ci il yanvar ayının 10-da isə 2018-ci ilin Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması barədə Respublika Prezidentinin Sərəncam imzalaması bu siyasətin uğurla davam etdirilməsinin, Prezident İlham Əliyevin Azərbaycanın zəngin tarixinə və mədəniyyətinə göstərdiyi diqqət və qayğının göstəricisidir.

Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasətində önəm verilən sahələrdən biri də dövlət-din münasibətləri olub. Qısa müddətdə bu sahədə çox ciddi addımlar atıldı, dövlətin din siyasətini həyata keçirən Xalq Maarifi və Dini Etiqad Nazirliyi yaradıldı, onların qarşısında ciddi vəzifələr qoyuldu.

Həmin dövrün dövlət-din münasibətlərini araşdırmaq üçün o mərhələdə cərəyan edən hadisələri öyrənmək, ictimai və siyasi durumu təhlil etmək xüsusi əhəmiyyət daşıyır.

XIX əsrin sonları - XX əsrin əvvəlləri dünyada bir çox ciddi dəyişikliklərin baş verməsi ilə yadda qaldı; sosial-iqtisadi proseslər sürətləndi, burjuaziya formalaşmağa başladı, yeni siyasi partiya və təşkilatlar yarandı.

Rusiyada iqtisadi vəziyyət ağırlaşdı, ölkəni tətil hərəkatı bürüdü və siyasi hakimiyyət zəiflədi. Ölkə rəhbərliyi bu gerçəkliyi nəzərə alaraq, ciddi siyasi qərarlar qəbul etdi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması məqsədilə bir sıra tədbirlər həyata keçirdi. Lakin bütün bu qərarlar ölkədə siyasi sabitlik yaratmaq və hakimiyyəti qorumaq üçün yetərli deyildi.

1917-ci ilin Fevral burjua-demokratik inqilabı çarizmin 300 illik hökmranlığına son qoydu. Bu hadisə Rusiya ərazisində yaşayan xalqların azadlıq hərəkatını daha da gücləndirdi. Zaqafqaziyada, o cümlədən, Azərbaycanda Milli-Demokratik Hərəkat geniş vüsət aldı. Bu prosesdə milli burjuaziya, xalq ziyalıları fəal iştirak etdilər. Oktyabr inqilabından sonra bölgələrdə demokratik hərəkat xeyli gücləndi, milli dövlət quruculuğu daha geniş əraziləri əhatə etməyə başladı. Zülmdən qurtulmaq, söz, dil və din azadlığı əldə etmək, öz milli dövlət quruluşunu yaratmaq bu hərəkatın əsas hədəflərindən birinə çevrildi.

Azərbaycan xalqının milli mənlik şüurunun gücləndiyi bir şəraitdə, suveren Azərbaycan Respublikasının elan etmək üçün əlverişli şərait yarandı. Müstəqilliyin elan olunması Çar Hökumətinin milli müstəmləkəçilik əsarətindən yorulmuş və öz milli dövlətini yaratmaq arzusunda olan yerli əhalinin əsas arzusu idi.

Həmin illərdə istedadlı Azərbaycan gənclərinin imperiyanın və dünyanın müxtəlif təhsil ocaqlarına göndərilməsi öz bəhrəsini verdi. Onlar Vətənə qayıtdıqdan sonra, milli demokratik hərəkatın yaranmasında böyük rol oynadılar. Avropada mütərəqqi ideyalarla tanış olan gənc mütəxəssislər böyük ideyalara qovuşmaq üçün ilk növbədə, qan yaddaşına qayıtmağın, özünü dərk etməyin, millətinin tarixini, mənəvi dəyərlərini araşdırmağın vacibliyini yaxşı anlayırdılar.

Bu məqsədlə milli məktəblər açılır, proqramlar hazırlanır, dərsliklər yazmağa təşəbbüs göstərilir, ayrı-ayrı xarici ölkə yazarlarının ən yaxşı əsərləri Azərbaycan dilinə tərcümə olunurdu. O dövrdə ziyalılarımızın qabaqcıl nümayəndələrindən Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Əlimərdan bəy Topçubaşov, Firidun bəy Köçərli, Məhəmməd Əmin Rəsulzadə və başqaları mətbuatda çıxış edərək xalqın şüurunun oyanmasında, millətin formalaşmasında mühüm rol oynayırdılar. Bu işdə Həsən bəy Zərdabinin və Məhəmməd Əmin Rəsulzadənin millətçilik və dövlətçilik, Cəlil Məmmədquluzadənin demokratiya və azərbaycançılıq ideyaları böyük təsir gücünə malik idi.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə nəticələnən milli dirçəliş, demokratikləşmə, maarifçilik və xeyriyyəçilik hərəkatlarında din xadimləri fəal iştirak edirdilər. Elmli, savadlı və nüfuzlu şəxsiyyətlər insanlar arasında böyük təsir gücünə malik idilər. Maarifçiliyə yönəlmiş xeyriyyə tədbirlərini, elm və biliyin təbliği işini belə şəxslərin köməyi ilə aparırdılar.

Həmin dövrdə uzun müddət Rusiya imperiyasının işğalına məruz qalan Şimali Azərbaycanın milli demokratik qüvvələrinin Bakını siyasi mərkəzə çevirmək üçün təşkilatlanmasında Təzəpir məscidi mühüm rol oynadı. Azərbaycan ziyalıları vaxtilə Çar Rusiyasının sünnilərlə şiələr arasında qızışdırdığı ixtilafları aradan qaldırmaq üçün Qafqaz Müsəlmanlarının Qurultayını çağırmağı qərara aldılar. Bu qərarı hər iki məzhəbin din xadimləri razılıqla qarşıladılar və 1917-ci ilin aprelində "İsmailiyyə" binasında (indiki AMEA-nın Rəyasət Heyətinin binası) geniş toplantı keçirildi. Üç gün davam edən qurultaya Şimali Azərbaycanın bütün qəzalarından, o cümlədən, Dağıstandan, Basarkeçərdən, Borçalıdan nümayəndələr dəvət edildilər. İclas başa çatdıqdan sonra tədbir iştirakçıları İsmailiyyədən Təzəpir məscidinə yollandılar, yüzlərlə din xadimi müfti və Şeyxülislamın iştirakı ilə məsciddə Cümə namazı qıldı. Sonra isə sünni-şiə ixtilafına son qoymaq üçün Şeyxülislamla-müfti qucaqlaşıb Qurana əl basaraq, Çar hökumətinin qızışdırdığı ədavəti aradan qaldırmağa çalışacaqlarına and içdilər.

1918-ci ilin may ayının 28-də Azərbaycan Milli Şurası müsəlman dünyasında ilk dəfə olaraq müstəqil və Demokratik Respublikanın yaradılmasını elan etdi. Azərbaycan Demokratik Respublikasının İstiqlal Bəyannaməsində milli və dini məsələlərlə bağlı müddəalar öz əksini tapdı.

1918-ci il iyunun 17-də hökumət təsis olundu, milli ənənələrə qayıtmaq, əhalinin dini ehtiyaclarını təmin etmək məqsədilə Xalq Maarifi və Dini Etiqad Nazirliyi (XMDEN) yaradıldı, N.B.Yusifbəyli bu quruma rəhbər təyin olundu. Nazirlik dərhal din xadimləri və din qurumlarla sıx əməkdaşlığa başladı. Ölkə Parlamentində Azərbaycanın milli, dini tərkibi nəzərə alındı, müsəlmanlara 80, xristianlara 35 yer ayrıldı. Ən çox yer isə ermənilərə verildi - onları parlamentdə 21 deputat təmsil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qafqaz müsəlmanlarının vahid ruhani idarəsinin yaradılmasına, şiə və sünni ruhani idarələrinin əməkdaşlığına nail oldu. Azərbaycanın müstəqilliyinin elan olunmasına qədər bu idarələr Tiflisdə yerləşirdi. Lakin bölgədə cərəyan edən son dərəcə mürəkkəb hadisələri nəzərə alaraq, hər iki ruhani idarəsinin rəhbərləri Məhəmməd Pişnamazzadə və müfti Mustafa Əfəndizadə Azərbaycana köçmək qərarına gəldilər. XMDEN-in 10 avqust 1918-ci il tarixli qərarı ilə onlar Gəncəyə köçdülər və könüllü olaraq 1918-ci ilin sentyabrın 1-də vahid orqanda birləşdilər. Sentyabrın 7-də XMDEN bu qərarı təsdiq etdi və Bakı 1918-ci ildə bolşeviklərdən azad olunduqdan sonra, ruhani idarəsi buraya köçürüldü.

Həmin dövrdə dini təyinatlı məkanlar xalqın məşvərət yerinə çevrilmişdi, din xadimləri milli oyanışa dəstək verirdilər. Təzəpir məscidi və İsmailiyyə binası bu qəbildən olan mərkəzlərdən hesab edilirdi. Düşmən Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin oynadığı rolu yaxşı bilirdi. Ona görə də mart ayının 31-də müsəlman əhalisinə qarşı soyqırımına başlayan daşnak-bolşevik birləşmələri XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında, eləcə də milli şüurun oyanmasında, elmi-dini maarifçiliyin təbliğində xüsusi rola malik möhtəşəm memarlıq abidələrindən biri olan İsmailiyyə binasını, "Kaspi" qəzetinin redaksiyası və mətbəəsini, orada yenicə çap olunmuş Qurani-Kərimin 5 min nüsxəsini yandırıb külə döndərdilər.

1918-ci ilin oktyabrında Pişnamazzadənin təşəbbüsü ilə həm şiə, həm də sünni sərəyan başçılarının yığıncağı keçirildi. Mufti Hüseyn Qayıbzadə 1917-ci ildə dünyasını dəyişdiyindən və bu, Çar Rusiyasının süqutu illərinə təsadüf etdiyindən, yerinə yeni mufti təyin edilməmişdi. Müftinin vəzifəsini idarənin yığıncağında işçilər tərəfindən seçilən Mustafa Əfəndizadə icra edirdi. Mustafa Əfəndi Pişnamazzadə ilə yaxın münasibətdə idi və uzaqgörən, millətini sevən, müdrik Şeyxülislama dərin hörmət bəsləyirdi.

**<u>1918-ci ilin 30 oktyabrında Şeyxülislamın imzası ilə hökumətə 367 N-li təkliflər məktubu ünvanlandı. Təkliflər 4 bölmədən ibarət idi:</u>**

*1. Azərbaycan Cümhuriyyəti hüdudlarında "Məşixət-i İslamiyyə" adlı ruhani idarəsi təsis edilsin və ona Türkiyədə mövcud olan Məşixət kimi tam müstəqillik verilsin.*

*2. 7 sentyabr tarixli 311 saylı təqdimatda göstərilən Məşixətin iki sədrindən birinə Şeyxülislam, digərinə müstəşar, yaxud müşavir adı verilsin.*

*3. Şeyxülislam iclaslarda iştirak etmək hüququ qazanaraq, rəsmən Nazirlər Şurasının üzvü hesab edilsin.*

*4. Ruhani heyətin komplektləşdirilməsi üçün Məşixətin birbaşa Sərəncamına kredit ayrılsın. Sadalanan və digər bu kimi məsələlərin həll edilməsi məqsədi ilə bizim də iştirakımızla fövqəladə yığıncaq çağırılsın.*

Şeyxülislam M. Pişnamazzadə başda olmaqla, ruhanilər bu çətin ideyanın təşəbbüsçüsü oldular və sonra da onu həyata keçirdilər. Bununla məzhəb ayrılıqlarından istifadə edərək, Qafqazda müsəlmanlar arasında düşmənçilik yaratmaq istəyən Çar Rusiyasının siyasətinə son qoydular.

Bu, Pişnamazzadənin müstəqil dövlətimizə göstərdiyi xidmətin nəticəsi idi. Belə ki, dini rəhbərlər hökumətin mövqeyini gözləmədən, özləri hər iki idarənin birləşdirilməsi və Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Türkiyə nümunəsi əsasında "Məşixət" adı ilə yenidən qurulması təşəbbüsü ilə çıxış etdilər.

1918-ci ilin 1 sentyabr tarixli birgə qərarı ilə hər iki idarə "Məşixət" adlanan vahid mərkəzdə birləşdirildi.

1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad olunmasından sonra, Məşixətin Bakıya köçürülməsi qərara alındı. Molla Məhəmməd Pişnamazzadə səhhəti ilə bağlı 1918-ci il dekabrın 10-da idarənin sədri və Şeyxülislam vəzifəsindən istefa verdi. Azərbaycan Xalq Cümhuriyyəti Dini Etiqad naziri Musa bəy Rəfiyevin tövsiyəsi ilə dekabrın 12-də Təzəpirin axundu, 47 yaşlı Ağa Əlizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri və Şeyxülislam seçildi.

Beləliklə, müsəlmanların dini işlərinin idarə edilməsində ikili münasibət - sünni-şiə ruhani rəhbərliyi aradan qaldırıldı. Qafqaz müsəlmanlarının vahid idarəsi yaradıldı. Şeyxülislam idarənin rəhbəri, yəni Qafqaz Müsəlmanları Ruhani İdarəsinin başçısı, müfti isə onun müavini oldu.

"XI Qızıl Ordu" Şimali Azərbaycanı işğal edənədək, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurası, sonra isə Parlamenti və Hökuməti mövcud olduğu qısa müddətdə iqtisadi, ictimai-siyasi və sosial həyatın müxtəlif sahələrinə aid bir çox islahat həyata keçirdi, ölkə vətəndaşlarının hüquqlarının təmin edilməsinə yönəlmiş qərar və tədbirlərdə əhalinin vicdan azadlığı məsələləri xüsusi yer tutdu.

Azərbaycan Xalq Cümhuriyyəti milli ənənələrin qorunması, o cümlədən, əhalinin dini ehtiyaclarının ödənilməsi ilə bağlı əhəmiyyətli addımlar atdı, hökumətin qərarı ilə ruhanilər və dini idarələr büdcədən maliyyələşdi, dini vergilər bilavasitə dövlət xəzinəsinə daxil edildi.

Azərbaycan Xalq Cümhuriyyəti iki ildən az yaşasa da, Azərbaycanda dövlət quruluşunun və istiqlaliyyətin bərpa olunması, xalqımızın milli mənlik şüurunun oyanması üçün az iş görmədi.

**Ceyhun MƏMMƏDOV,**
*İlahiyyat üzrə fəlsəfə doktoru*

# Alimlərimiz xarici ölkələrdə

ANAR QAFAROV TÜRKİYƏDƏ



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Din və ictimai fənlər kafedrasının müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov bir çox beynəlxalq konfransda, Amerika və Türkiyənin müxtəlif universitetlərində təşkil olunan seminarlarda İslam fəlsəfəsi və İslam mədəniyyəti çərçivəsində dəfələrlə məruzə edib, ölkə daxilində və xaricində mühüm elmi və sosial layihələr həyata keçirib. Alim, Respublikamızda və xaricdə çoxsaylı kitab və məqalələrin müəllifi, elmi redaktoru, tərcüməçisi və həmmüəllifidir. Məlumat üçün onu da bildirək ki, dosent Anar Qafarovun fəlsəfi əsərləri Azərbaycandan kənarda da böyük maraqla qarşılanır. Türkiyə universitetlərinin ilahiyyat və fəlsəfə fakültələrinin bakalavr, magistr və doktorantura təhsilində tədris vəsaiti kimi istifadə olunur.

Azərbaycanlı alim 29-30 sentyabr 2018 ci il tarixdə Türkiyənin İbrahim Çeçen Universitetində keçirilən "İslam düşüncəsində insan" İkinci Beynəlxalq Ahmedi-Hani Simpoziumunda iştirak edib. 5 xarici ölkədən 71 alimin iştirakı ilə keçirilən simpoziumda böyük Osmanlı alimi Ahmed-i Haninin İslam düşüncəsinə və mədəniyyətinə verdiyi töhfələr, yazdığı mühüm əsərlər və göstərdiyi xidmətlər haqqında məruzələr dinlənilib.

Dosent Anar Qafarov "İslam fəlsəfəsinin insan təsəvvüründə vicdan məfhumunun yeri: Nəsirəddin Tusi mərkəzli dəyərləndirmə" adlı məruzə ilə çıxış edib. Məruzədə Azərbaycan filosofu Nəsirəddin Tusinin İslam düşüncəsi və mədəniyyətindəki yeri və əhəmiyyətindən bəhs edilib. İslam əxlaq fəlsəfəsində, xüsusən də N.Tusinin fəlsəfəsində vicdan məfhumunun əks etdirilməsinə toxunan A.Qafarov bu məfhumun mahiyyətinin həm İslam əxlaq düşüncəsinin əsas mənbəyini təşkil edən Quran və hədislərdə, həm də fəlsəfi, dini və təsəvvüf düşüncəsini İslam mətnlərindəki məfhumlar üzərindən inşa edən Tusinin fəlsəfi əsərlərində mövcud olduğunu irəli sürüb.

20 noyabr 2018-ci il tarixdə Türkiyənin Mardin Artuklu Universitetində keçirilən "Dil, düşüncə və din elmləri" adlı beynəlxalq konfransda ölkəmizi gənc alim dosent Anar Qafarov təmsil edib. İngiltərə, Amerika, Almanya, İran, İraq və digər ölkələrin qabaqcıl universitetlərinin alimlərinin iştirakı ilə təşkil olunan konfransda elm tarixi, fəlsəfə, linqvistika, din, əxlaq, ədəbiyyat, sənət və incəsənət kimi sahələr geniş müzakirə obyektinə çevrilib.

Konfransda dosent Anar Qafarov "İctimai dəyərlərlə bağlı şüurun formalaşmasında din və İslam fəlsəfəsinin yeri" mövzusunda məruzə ilə çıxış edib. A. Qafarov lokal və qlobal dəyərlərin mənimsənilməsi və müxtəlif mədəniyyətləri təmsil edən fərd və cəmiyyətlər arasındakı münasibətlərin inkişaf etdirilməsi baxımından, qloballaşma hadisəsini müsbət amil kimi dəyərləndirib. Məruzəçi bu proseslə dil, irq, etiqad, mədəniyyət, məzhəb, təriqət və iqtisadi cəhətdən ortaya çıxan müxtəlifliyin ictimai vəhdət zəminində həll olunmasının bəzi problemlər yaratdığını vurğulayıb. A.Qafarovun qeyd etdiyinə görə, dünyada mədəni müxtəliflik, demokratiya, insan hüquqları və azadlıqları mövzusunda keçirilən bir çox siyasi müzakirələrə baxmayaraq, hazırda bəşəriyyət şiddət, zülm, ədalətsizlik, hüquqi bərabərsizlik nümayiş etdirən mənfi təzahürlər və müxtəlif münasibət formaları ilə çalxalanır.

Anar Qafarov sosial-mədəni və mənəvi mədəniyyəti tarix boyu özündə əks etdirən Azərbaycanın birgəyaşayış ənənəsi və ictimai dəyərlərindən nümunələr gətirib. Alimin məruzəsi tədbir iştirakçıları və alimlər tərəfindən maraqla qarşılanıb.

ELNURƏ ƏZİZOVA "ƏXLİK TƏŞKİLATI" HAQQINDA

AİI-nin Dinşünaslıq kafedrasının müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizova Respublikamızda və xaricdə 20-yə yaxın elmi konfransda iştirak edib və dinşünaslıq sahəsində müxtəlif mövzularda məruzə edib. Onun 2011-ci və 2016-cı illərdə İstanbulda İSAM nəşriyyatında "Məhəmməd Peyğəmbər dövründə işgüzar həyat və peşələr" adlı əsəri nəşr olunub. 2009-cu ildə doktorantura üzrə elmi işi İstanbulda ən yaxşı "Hədis və siyər doktorantura dissertasiyası" mükafatına layiq görülüb. Respublikamızda və xaricdə nəşr olunan altı kitabın həmmüəllifi, 30-a yaxın elmi məqalənin müəllifidir.



Azərbaycan İlahiyyat İnstitutunu xaricdə təmsil edən alim olaraq dosent Elnurə Əzizova 2018-ci ilin sentyabr ayında Türkiyənin Cümhuriyyət Universitetinin təşkilatçılığı ilə keçirilən "Ahilikte iş ve ticaret ahlakı" adlı beynəlxalq simpoziumda iştirak edib.

Simpoziumda 8 ölkədən 40-a yaxın məruzəçi Türk-İslam tarixində sosial, dini və iqtisadi cəhətdən mühüm rolu olmuş "Əxilik təşkilatı"nda iş və ticarət əxlaqına dair fərqli mövzularla çıxış edib.

Dosent E.Əzizova simpoziumda "Əxilik peyğəmbərliyin mirasıdır: Mənşəyin müqəddəsliyi çərçivəsində üxüvvət təşkilatının nəbəvi referansları" mövzusunda çıxış edib. E.Əzizova Azərbaycan türklərindən olan Şeyx Nəsrəddin Mahmud Xoyi tərəfindən Anadoluda təşkilatlandırılan üxüvvətin nizamnaməsi sayılan "Fütüvvətnamə" əsərlərində qeyd olunan iş prinsipləri haqqında məlumat verib. Məruzədə mövzuya dair İslam peyğəmbərinə istinadların qarşılıqlı təhlili, həmçinin İslam iqtisadiyyatı tarixinin mühüm mənbələrindən olan "Kəsb" ədəbiyyatı çərçivəsində islam düşüncəsində peşə və sənətlərin ictimai və iqtisadi mövqeyi dəyərləndirilib. Dosent E.Əzizova moderatoru olduğu panelin sonunda simpoziumun elmi heyətinin üzvlərinə sertifikatlarını təqdim edib.

✍ Ayşən Aslanova

# Bu dövrun gəncləri çox şanslıdırlar



İlqar Orucov,
*fəlsəfə doktoru, Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri*

Dövlət başçısının 9 fevral 2018-ci il tarixdə imzaladığı Sərəncamla Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılması haqqında göstəriş verdi. Yeni təhsil müəssisəsi artıq bir ilə yaxındır ki, fəaliyyət göstərir. Bu ali təhsil müəssisəsinin yaradılması ölkəmiz üçün xeyli əhəmiyyətli hadisədir. Xüsusilə, son illərdə dünyada gedən gərgin siyasi proseslər, din-dövlət münasibətlərinin kəskinləşməsi, dünyada süni şəkildə dini qarşıdurmaların və radikalizmin formalaşdırılması daha çevik, ağıllı və düşünülmüş qərarlar qəbul etməyi diktə edir. Müxtəlif siyasi mətbəxlərdə insanların dini inanclarının məqsədli şəkildə yanlış formada idarə edilməsi cəmiyyətin dini baxımdan savadlı, bilikli və məlumatlı olmasını tələb edir. Xüsusilə, dövlətin milli təhlükəsizliyinin mühüm tərkib elementlərindən biri kimi bu faktor hazırda xeyli aktualdır.

Əvvəllər ölkəmizdə dini təhsil almaq istəyən gənclərimiz arzularını gerçəkləşdirmək məqsədilə digər dövlətlərə üz tuturdular. Bir çox hallarda biz bu prosesin əks effektini görürdük. Təəssüflə qeyd etmək lazımdır ki, həmin dövlətlərdə gənclərimiz çox vaxt məqsədli şəkildə müxtəlif təsirlərə məruz qalırdılar. Digər tərəfdən, dini baxımdan insanlarımızın bilgisizliyinin şahidiyik. Dini mərasimləri həyata keçirən, bunu fəaliyyət növü seçən insanların yerində olmaması özünü aydın göstərir. Savadlı ilahiyyatçı kadrların hazırlanmasına və onlardan ölkəmizdə istifadə etməyə böyük zərurət vardır. Hesab edirəm ki, yaradılmış yeni institut yaxın illərdə bu istiqamətdə faydalı nəticələr ortaya qoyacaqdır. Fikrimcə, yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini təmin etmək, dini fəaliyyətin təşkili prosesi üçün savadlı, bilikli kadrların hazırlanması məqsədilə növbəti tədris ilində tələbə qəbulu planının artırılması vacibdir. Həmçinin, gələcəkdə institutda bütün dinlər üzrə və təhsilin daha yüksək (magistratura və doktorantura) pillələrində də yüksək ixtisaslı kadr hazırlığının təşkil edilməsinə ehtiyac vardır.

# İmtahanlarda şəffaflıq naminə

İnstitutumuzda qış imtahan sessiyasına hazırlıqla bağlı növbəti iclas keçirilib. Rektor, müəllim və əməkdaşlar yığıncaqda iştirak ediblər. Sessiyanın mövcud qaydalara uyğun təşkili, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin edilməsi, mövcud normativ sənədlər əsasında keçirilməsi, təhsil müəssisəsində imtahan qərargahının yaradılması, bu qərargaha daxil olan hər bir şikayətin operativ araşdırılıb tədbir görülməsi müzakirə edilib. Eyni zamanda, imtahanlarda şəffaflığın təmin edilməsi üçün valideynlərin və ictimayyət nümayəndələrinin iştirakına şərait yaradılması, "açıq qapı" günlərinin keçirilməsi nəzərdə tutulub.

İnstitutun binasında müraciət və təklif qutuları asılıb. Eyni zamanda, Apelyasiya komissiyasına müraciət formaları, imtahanda iştirak edəcək müəllim-koordinatorlar haqqında təlimatlar müəyyənləşdirilməsi qərara alınıb.

İclasda imtahanların iki saat zaman çərçivəsində yazılı, testlə və şifahi keçirilməsi, ən azı 2 gün fasilə ilə cədvəlin müəyyənləşdirilməsi nəzərdə tutulub. Bu barədə müəllimlər və koordinatorlar məlumatlandırılıblar.

✍ Elnarə Ağaoğlu



# Əsirlikdə olan məbədlərimiz

**Qalalar xalqımızın düyünlənmiş yumruqları, məbədlər, kurqanlar, müqəddəs ocaqlar, türbələr, abidələr tariximizdir. Çox təəssüf ki, erməni faşistləri qan yaddaşımıza olmazın zərbələr vurmaq istəyərək, Dağlıq Qarabağda, işğal altında qalan ərazilərdə abidələrimizlə, tariximizlə, mədəniyyətimizlə bağlı yerlərə divan tutublar. Məscidləri, məbədləri, ziyarətgahları, çoxsaylı karvansaraları, hamamları, qəbiristanlıqları dağıdıblar. Bu abidələri məhv etməklə keçmişimizi silməyə çalışıblar.**



Məlumdur ki, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və İran arasında bölüşdürüldü və Çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Nail ola bilmədikdə, dağıdıcı, viranedici vasitələrə əl atdılar.

1913-1918-ci illərdə İrəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdıldı. Şah İsmayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi İrəvan qalası, o cümlədən, 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv edildi. O illərdə İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan ediləcək yandırıldı. Dağlıq Qarabağ və işğal olunmuş ərazilərdə 464 tarixi, memarlıq və mədəniyyət abidəsi, Şuşa və Laçın rayonlarının hər birində 200-ə yaxın memarlıq abidəsi, Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, onminlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edildi. Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş

Qarğabazar karvansarayı və digər tarixi memarlıq abi-



dələrimiz erməni vandalizminə məruz qalıblar. Hər il "18 Aprel Abidələrin Beynəlxalq Mühafizə Günü"nü və rayonların işğal gününü anım mərasimləri ilə qeyd edirik. "Böyük Ermənistan" yaratmaq xülyaları və istəklərinə çatmaq üçün xalqımıza qarşı vandalizm törədən düşmənlər öz vəhşi hərəkətləri ilə o abidələri yer üzərindən silə bilərlər, amma yaddaşımızdan silə bilməzlər.

Ə.Ələkbərlinin "Qərbi Azərbaycan abidələri", "Qədim türk-oğuz yurdu", H.Mirzəyevin "Qərbi Azərbaycanın Dərələyəz mahalı", "Müharibə və tarixi-mədəniyyət abidələrimiz", Çingiz Qacarın rus dilində nəşr edilmiş "Staraya Şuşa" kitablarında bu vandalizm aktları geniş əks olunub.

İşğal nəticəsində dağıdılmış abidələrimizin, şəhər və kəndlərimizin şəkillərindən ibarət fotostendlər, illüstrasiyalar düşmənin xain niyyətini göz önündə canlandırmağa kömək edir. "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 1993-cü il tarixində qəbul edilmişdir), "Arxeoloji abidələrin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyasına (30 sentyabr 1997-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir), "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Paris Konvensiyasına (Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 16 dekabr 1993-cü il tarixdə qəbul edilmişdir), "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına (Azərbaycan Respublikası tərəfindən 20 oktyabr 1999-cu il tarixli Qanunu ilə qüvvəyə minmişdir) və beynəlxalq konvensiyalara Azərbaycanın əməl etməsi, Ermənistanın isə bu qanunları kobudcasına pozması göz qabağındadır.. Unutmamalıyıq ki, bu faciənin səbəbkarı olan ermənilər torpaqlarımızı darmadağın ediblər. Beynəlxalq ictimaiyyətin səylərinə, Azərbaycanın sülhsevər niyyətinə baxmayaraq, təcavüzkarlar bu gün də öz quldur siyasətlərini davam etdirirlər. O torpaqlar azad edilməsə, abidələrimiz də heç vaxt azad olunmayacaqdır.

# "Tolerantlıq həyatımızın tərkib hissəsidir"

**Müsahibimiz Perm Vilayəti Müsəlman Ruhani İdarəsinin nümayəndəsi, Rusiya Federasiyası Jurnalistlər Birliyinin üzvü, "Искренност" jurnalının Baş redaktoru Səfa Kərimovdur.**



***- Səfa müəllim, redaktoru olduğunuz jurnalın tirajı nə qədərdir və necə yayımlanır?***

- Bu jurnal İslam aləmində rus dilində nəşr olunan yeganə dərgidir. 1 000 nüsxəyədək tirajı var və müxtəlif ölkələrdə yayımlanır. Bu tirajı artırmaq da mümkündür, çünki maraqla oxunur. Hər halda, bunu gələcək fəaliyyətimiz göstərəcək.

***- Rusiyada İslam nə vaxtdan təşəkkül tapmağa başlayıb?***

- Tarixçilərin bu barədə müxtəlif fikirləri var. Özümün araşdırmalarma görə belə qənaətə gəlmişəm ki, bu tarix ərəb xilafəti dövrünə - 651-ci ilə, ərəblərin Dərbəndi işğal etdiyi vaxta təsadüf edir.

***- Rusiyada təxminən nə qədər müsəlman əhali yaşayır və İslama münasibət necədir?***

- Bu gün Rusiyada 20 milyondan artıq müsəlman yaşayır. Bu artım yeni gələnlərin və İslamı qəbul edənlərin hesabına ildən-ilə artır. Biz müsəlman bayramlarını birlikdə təntənə ilə qeyd edir, çətin vəziyyətdə qalanlara, yardıma ehtiyacı olanlara köməklik göstəririk. Məscidlərimiz Rusiyanın, həmçinin keçmiş ittifaqın müxtəlif yerlərində fəaliyyət göstərir. Rusiyada Xristian dinindən sonra ən geniş yayılmış və tanınan din İslamdır. Mən şəxsən, Xristian və İslam dinləri arasında son dərəcə qarşılıqlı ehtiramın canlı şahidiyəm. İbadətçi insanlar bir-birlərinə hörmət edirlər.

***- Tolerantlıq baxımından Rusiyanı Azərbaycanla müqayisə etmək olarmı?***

- Bu, müasir həyatımızın ayrılmaz tərkib hissəsidir. Tolerant olmasaq, nə Rusiyada, nə də Azərbaycanda gələcəyimiz mümkün deyil. Sevindirici haldır ki, hər iki ölkədə bu sahəyə ciddi yanaşma var, dinə münasibət diqqət mərkəzində saxlanılır.

***- Azərbaycan İlahiyyat İnstitutu ilə Rusiyanın ali məktəbləri arasında əlaqə yaratmaq, müəllim və tələbə mübadiləsi aparmaq mümkündürmü?***

- Bir az əvvəl AİI-nin çox hörmətli rektoru cənab Ceyhun Məmmədov Rusiyaya işgüzar səfərə gəlmişdi. Aparılan ikitərəfli və çoxtərəfli danışıqlar öz nəticəsini verməkdədir. Rusiyada Azərbaycan İlahiyyat İnstitutu ilə yanaşı, digər dünyəvi elmləri öyrədən tədris ocaqlarına da ciddi maraq yaranıb. Səfər çərçivəsində Perm Dövlət Mədəniyyət İnstitutu ilə müqavilə imzalanıb. Razılaşmaya görə növbəti dərs ilində bu tanınmış təhsil ocağında ilahiyyat dərsləri tədris ediləcək. Sevindirici odur ki, dərsləri məhz Azərbaycan İlahiyyat İnstitutundan dəvət olunan İslam tarixçiləri tədris edəcəklər.

Qarşıda böyük planlarımız var. Moskva İslam İnstitutu, Kazan İslam Universiteti ilə əlaqələri inkişaf etdirəcəyik. Təkrarən demək istəyirəm ki, bütün ali məktəblər Azərbaycan İlahiyyat İnstitutu ilə əlaqə yaratmaq istəyir və bu tərəfdaşlıqdan məmnundurlar.

***- Hansı ölkələrin təcrübəsinə üstünlük verir və ondan yararlanırsınız?***

- Müxtəlif ölkələrdə ayrı-ayrı ali məktəblər fəaliyyət göstərir. Onların çoxuna marağımız var. Mənə elə gəlir ki, hazırda ən etibarlı tərəfdaşımız Azərbaycan İlahiyat İnstitutudur. Bu ali təhsil ocağının xariclə əlaqəsi, dünyaya açıq olması, kadr potensialı, müasir tədris metodu və texnologiyası nümunəvidir. Onun təcrübəsinə əsaslanıb dünyasəviyyəli ali məktəb yaratmaq mümkündür.

***- Səfa müəllim, "Искренност" jurnalının oxucuları Azərbaycan İlahiyyat İnstitutu haqqında məlumatlıdırlarmı?***

- Əlbəttə. Azərbaycanda belə bir institutun fəaliyyət göstərməsi haqqında Rusiya Federasiyası müsəlmanlarının rəhbər işçiləri və oxucularımız məlumatlıdırlar. Ümidvarıq ki, yeni təqvim ilinin ilk ayından bu mövzu daha da aktual olacaq, fəal işıqlandırılacaq.

***- Oxucularımıza sözünüz?***

- İnanıram ki, yeni nəşriniz olan "İlahiyyatçı" qəzeti bütün islamsevərlərə böyük hədiyyə, İslam dininə qəlbən bağlı olub ona ibadət edənlərin, ilahiyyatçı tələbələrin sevimli tribunası olacaq. Bu böyük və şərəfli işi öz üzərinə götürən kollektivinizə uğurlar arzulayıram.

***- Müsahibə üçün çox sağ olun!***

**Səhifəni hazırladı: Rəhilə Misirxanlı**

# Naxçıvan-95

***Naxçıvan dünyanın ilk yaşayış məskənlərindən biridir. Şərq ölkələrinin görkəmli simaları olan Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Övliya Çələbi bu yeri "Nəqşi-Cahan", yəni dünyanın bəzəyi adlandırıblar. Bu qədim diyarın tarixi keçməkeşli olub. Yaxın və uzaq dövlətlərin orduları Naxçıvanı dəfələrlə zəbt edərək viran qoyub, döyüşkən əhalinin bir qismini qırıb, qalanlarını da başqa ölkələrə köçürüb və öz zülmkar hakimiyyətlərini qurublar.***



Tarixin müxtəlif dövrlərində Naxçıvanı Manna, Midiya, Sasanilər, Salarilər, Səlcuqlar əsarət altında saxlayıblar. Ağqoyunluların, Qaraqoyunluların, Səfəvilərin hücumlarına mərdliklə sinə gərən naxçıvanlılar işğalçılara qarşı inadla döyüşərək öz qəhrəmanlıqları ilə düşmənləri heyrətə salıblar. Bizim eranın VI əsrində Naxçıvanda zərbxana yaradılıb və "naxç" adlanan gümüş draxmalar kəsilib. Həmin gümüş pullar Naxçıvanın yaxın münasibət saxladığı qonşu dövlətlərin ərazilərində sərbəst istifadə edilir, onun daxili və xarici ticarət əlaqələrini tənzimləyirdi.

Naxçıvanda IX əsrdə ərəb xilafətinə qarşı başlanan mübarizə daha geniş vüsət aldı. Əlincə qalası həndəvərində gedən qanlı döyüşlər sübut etdi ki, bu kiçik diyarda böyük xalq yaşayır. Bunu yaddan çıxarmayan Səlcuqlar öz canişinlərinin iqamətgahını Naxçıvan şəhərində yerləşdirdilər ki, vəziyyəti nəzarət altında saxlaya bilsinlər.

XII əsrdə iki qadının - Məhəmməd Cahan Pəhləvanın həyat yoldaşı Zahidə və qızları Cəlaliyyə xatının, sonralar məşhur Kəngərli sülaləsindən olan Heydərqulu xanın Naxçıvanın qüvvətlənməsində böyük xidmətləri olub.

1395-ci ildə Orta Asiyanın fatehi Əmir Teymur Naxçıvana böyük ordu ilə basqın etsə də, yerli əhalinin müqavimətini qıra bilmədi. Əlincə qalasının müdafiəçilərinin 14 illik əzmi Əmir Teymur kimi bir sərkərdəni təəccübləndirdi. Bütün hərbi yürüşlərində qarşısındakı orduları bir-iki həmləyə darmadağın edən Teymurun qoşunları naxçıvanlıların əzmini 14 il qıra bilmədi. Naxçıvanlıların döyüşkənliyi Əmir Teymurun xoşuna gəlib və deyib ki, "Bu basılmaz elləri basmaq heç insafdan deyil, qoy yaşasın. Müharibələrdə keçən ömrümdə belə inadkarlığı, belə cəsarəti ilk dəfədir ki, görürəm. Əgər bir dəstə insan mənim bütün orduma tabe olmursa, deməli, bu torpaqda nə isə var".

Böyük İpək Yolunun üstündə yerləşməsi bu diyarın Şərqin ticarət mərkəzi kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvan Yaxın və Orta Şərq, İran, Türkiyə, Kiçik Asiya və Qara qəniz ölkələri ilə ticari əlaqələr saxlayırdı. Bir sözlə, bu ərazi Qərblə-Şərqi birləşdirən qovşaq rolunu oynayırdı.

Naxçıvan XIX əsrin əvvəllərində Rusiya-İran müharibələrinin meydanına çevrildi. İranın məğlubiyyəti ilə bitən müharibələrdən sonra bağlanan Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri nəticəsində Azərbaycanın tarixi torpaqları bu iki ölkə arasında bölüşdürüldü. Çar I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqları ləğv edildi. Azərbaycan torpaqlarında süni surətdə yaradılmış Ermənistanın həm daşnak hökuməti, həm də sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanı Azərbaycandan ayıraraq Ermənistana birləşdirmək cəhdləri naxçıvanlıların inadlı mübarizəsindən sonra iflasa uğradı. 1921-ci ildə Rusiya, Gürcüstan, Azərbaycan, Ermənistan və Türkiyə arasında bağlanmış Qars müqaviləsinə əsasən, Naxçıvanın statusu Azərbaycanın tərkibində qalmaqla təsbit edildi.

1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsi Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsini təsdiq etdi. Yersiz iddiası puç olan Ermənistan hökuməti bu faktla heç cür barışmadı. Ancaq daşnak hökuməti Moskvadakı havadarlarının köməyi ilə Naxçıvanın bəzi ərazilərinin ondan qoparılıb Ermənistana birləşdirilməsinə nail oldu. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsinin qərarı ilə 1929-cu ildə Naxçıvanın 657 kvadratkilometrlik ərazisi-Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadizi, Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan və Kilid kəndləri Ermənistana verildi. Aldərə Lehvaz, Nüvədi və Astazur kəndləri isə 1930-cu ildə daşnaklara "hədiyyə" edildi. Ermənilər həmin ərazidə Mehri rayonunu təşkil etdilər.

Bütün bunlara baxmayaraq, Ermənistan SSR-in Ensiklopediyasında (III cild, səh. 571) verilən məlumata görə, İrəvan bölgəsini düz 438 il, yəni 1390-cı ildən 1828-ci ilədək Naxçıvan xanları idarə ediblər. Ensiklopediyada həmin xanların adları və hakimiyyət illəri xronoloji ardıcıllıqla əks etdirilib.

Xatırladaq ki, SSRİ-nin dağılmasından istifadə edən Ermənistan havadarlarının köməyinə arxalanaraq, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin özünə birləşdirilməsini yenidən tələb etdi. Bu dəfə də Naxçıvan çətin sınaqlar qarşısında qaldı. Ermənilər silahlanaraq, 1990-cı il yanvarın 19-da Naxçıvanın ucqar Kərki kəndinə hücum etdilər, ölən və yaralananlar oldu, quldurlar kəndi ələ keçirdilər. Bundan 8 saat sonra sovet qoşunları Bakıda 20 Yanvar faciəsini törətdilər. Sonrakı illərdə gedən döyüşlərdə Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin yaratdığı Milli Müdafiə Komitəsinin özünümüdafiə dəstələrinin döyüşçüləri igidliklə vuruşaraq bir addım da geri çəkilmədilər.

Ali Sovetin 1990-cı il noyabrın 17-də keçirilən iclasında Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qəbul edilməsi, Ali Sovetin adının dəyişdirilib Milli Məclis adlandırılması, yeni Gerb və Himnin qəbul olunması qərara alındı.

Ulu öndərimiz Heydər Əliyev 1992-ci ildə Naxçıvan Ali Məclisinin sədri işləyərkən Türkiyədə Qars müqaviləsinin təzələnməsi erməni təcavüzkarlarına gözlənilməz zərbə oldu. Ermənilər başa düşdülər ki, Naxçıvana iddiaları olan həmişəlik iflasa uğradı. Yalnız bundan sonra diyar sakit həyatını yaşamağa başladı, inkişaf etdi və bugünkü gözəl Naxçıvana çevrildi.

***Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 ili tamam olacaq. Ölkəmizdə həmin gün ümumxalq miqyasında təntənəli surətdə qeyd ediləcək.***

✍ **Ceyhun Valehoğlu**

## MƏNƏVİ DƏSTƏK VƏ MAARİFLƏNDİRMƏ AKSİYASI

**Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşları Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 saylı qadın cəzaçəkmə müəssisəsində olublar. Görüş iştirakçıları İslah-Əmək Müəssisəsinin Akt zalına toplaşıblar. Səmimi qarşılanma mərasimindən sonra rektor Ceyhun Məmmədov çıxış edib:**

- Azərbaycan İlahiyyat İnstitutu tələbələrin vətənpərvərlik ruhunun gücləndirilməsi, milli ruhda hazırlanması, təəssübkeşliyin, torpağa bağlılığın, dövlətə sevginin aşılanması məqsədilə silsilə tədbirlər həyata keçirir. Azərbaycan İlahiyyat İnstitutu xalqımızın tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişafı, dini fəaliyyət sahəsində peşəkar kadrların hazırlanmasının təmin edilməsi məqsədilə müasir təhsil standartları və müvafiq sahədə dünya təcrübəsi əsasında yaradılmış yeni ali təhsil müəssisəsidir.

Azərbaycanda insan hüquqlarının qorunması sahəsinə xüsusi diqqət yetirilir, cəzaçəkmə müəssisələrində məhkumların saxlanma vəziyyəti buna bariz nümunədir. Dövlətimiz tərəfindən məhkum qadınların hüquqlarının müdafiəsinə, problemlərinin həllinə, onların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər həyata keçirilir.

Rektor daha sonra ölkəmizdə təhsilə, mədəniyyətə, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət ayrıldığını diqqətə çatdırıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun təsis edildiyini bu istiqamətdə atılmış ən vacib addımlardan biri olduğunu bildirib.

Cəmiyyətin diqqət və mənəvi qayğıya ehtiyac duyan həssas təbəqəsinə dəstək olmaq, hər bir ölkə vətəndaşının vəzifəsidir.

Cəzaçəkənlərin zərif məxluqun nümayəndələri olması çox acınacaqlıdır. Odur ki, bu səfər gənclər arasında maarifləndirmə işləri aparmaq baxımından da çox önəmlidir.

Penitensiar Xidmətin əməkdaşlarının və İnstitut kollektivinin, həmçinin tələbə heyətinin iştirak etdiyi tədbirdə çıxış edən ədliyyə kapitanı Zülfiyyə İbrahimova dövlətin göstərdiyi qayğı və diqqətin hər zaman yüksək səviyyədə olduğunu vurğulayıb. O, bu ziyarəti təqdirəlayiq hesab edərək, silsilə tədbirlərin gələcəkdə də davam etdirilməsinin, həbsxana divarları arasında ömrünü əridən, ər, oğul yolu gözləyən qadınlar üçün vacibliyini, həmçinin cinayətkarlıqla mübarizədə maarifləndirmənin gücləndirilməsi baxımından zəruriliyini bildirib.

Sonda cəza çəkən məhkumlara müxtəlif hədiyyələr təqdim olunub.

✍ **Fidan Yusifova**

BEYNƏLXALQ ƏLAQƏLƏR

# Təcrübə mübadiləsi

## RUSİYA SƏFƏRİ

**Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov Rusiya Federasiyasi Perm vilayətinin İncəsənət Universitetində "Miqrantların adaptasiya problemi və ekstremist ideologiyalara qarşı mübarizə" mövzusuna həsr olunmuş beynəlxalq konfransda iştirak edib.**

O, "Dini ekstremizmin qarşısının alınması: mövcud vəziyyət və təhdidlər" mövzusunda məruzə edib. Bildirilib ki, müasir dövrdə dünyanın bir çox dövləti dini ekstremizm və terrordan əziyyət çəkir, bölgələrdə bu səbəbdən ictimai sabitlik pozulur, vətəndaş qarşıdurması yaranır, milyonlarla insan qaçqın və didərgin həyatı yaşayır, tarixi memarlıq abidələri, dini ibadət ocaqları dağıdılır.

Radikalizm və ekstremizmin yaranmasının obyektiv və subyektiv səbəblərindən danışan natiq bəzi dövlətlərin öz siyasətində dini zəmində ayrı-seçkiliyə rəvac verdiyini, bunun da dinlərarası münasibətlərin gərginləşməsinə səbəb olduğunu bildirib.

C.Məmmədov konfrans iştirakçılarına Azərbaycan xalqının zaman-zaman terrora məruz qalması, onun ağrı-acıları barədə məlumat verib. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri barədə danışıb: "Ermənistanın terrora dövlət səviyyəsində dəstək verməsi və Azərbaycana qarşı bunu tətbiq etməsi, çoxlu sayda Azərbaycan vətəndaşını qətlə yetirməsi, mədəniyyət abidələrini dağıtması inkaredilməz faktlardır. Ermənistan tərəfindən müxtəlif vaxtlarda ölkəmizdə bir sıra terror aktlarının törədilməsi bu fikri bir daha təsdiq edir".

Rektor vurğulayıb ki, terrorun ağrı-acısını yaşamış bir ölkə kimi, Azərbaycan onun bütün təzahürlərini pisləyir, terror hadisələrinin qarşısının alınmasına yönəlmiş səyləri dəstəkləyir, onu doğuran səbəblərin aradan qaldırılması və qarşısının alınması məqsədilə dünyanın bir çox ölkəsi və beynəlxalq təşkilatlarla müntəzəm və sıx əməkdaşlıq edir. O bildirib ki, ekstremizmə qarşı mübarizənin gücləndirilməsi və radikallıq meyillərinin qarşısının alınması ilə bağlı müddəalar Azərbaycan Respublikasının qanunlarında da öz əksini tapıb. 2015-ci ilin dekabr ayında Azərbaycanda "Dini ekstremizmə qarşı mübarizə haqqında" Qanun qəbul edilib.

Məruzəçi qeyd edib ki, ekstremizmlə mübarizədə ən səmərəli metodlardan biri maarifləndirmə işinin gücləndirilməsi, insanların, xüsusilə də gənc nəslin dini biliklərinin artırılmasıdır.

Moskva İslam İnstitutu və Permdə fəaliyyət göstərən ali təhsil müəssisələrinin rəhbərləri ilə də görüşlər olub.

İşgüzar söhbətlərdə Azərbaycan İlahiyyat İnstitutu haqqında geniş məlumat verən AİI rektoru Ceyhun Məmmədov rəhbərlik etdiyi ali təhsil ocağında beynəlxalq əlaqələrin qurulmasına, qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsinə önəm verdiyini vurğulayıb.

Tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında geniş fikir mübadiləsi aparılıb.

Eyni zamanda, tədris metodu üzrə elmi məlumatların qarşılıqlı olaraq ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı biliklərin bölüşdürülməsi, elmi-tədqiqat proqramları və layihələrinin birgə təşkili, tələbə mübadiləsi və digər məsələlər müzakirə olunub.

Rusiyalı nümayəndələr bu əməkdaşlığın qurulmasından məmnun qaldıqlarını və birgə fəaliyyətin faydalı olacağından əminliklərini ifadə ediblər.

Keçirilən görüşlərdə Moskva İslam İnstitutu ilə əldə edilmiş razılığa əsasən, növbəti aylarda AİI-nin nümayəndə heyətinin sözügedən təhsil müəssisəsi ilə əməkdaşlıq əlaqələrinin qurulması və təcrübə mübadiləsinin aparılması məqsədilə Rusiya Federasiyasına səfəri nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, xarici əlaqələrin inkişafına böyük önəm verən Azərbaycan İlahiyyat İnstitutu yeni ilin ilk ayında Rusiya Federasiyası Perm vilayətinin Perm Dövlət İncəsənət Universiteti ilə bir sıra akademik sahələri əhatə edən əməkdaşlıq protokolu da imzalayıb. İnstitut növbəti günlərdə bir neçə xarici təhsil müəssisəsi ilə anlaşma memorandumu imzalamağı planlaşdırır.

## TÜRKİYƏ SƏFƏRİ

**Azərbaycan İlahiyyat İnstitutu öz fəaliyyətində beynəlxalq əlaqələrə xüsusi önəm verir. Qabaqcıl təcrübəni öyrənmək və yeni yaradılan təhsil ocağında tətbiq etmək məqsədilə rəhbərlik bütün addımları atır. Dünya praktikasını İnstituta gətirmək məqsədilə xarici ölkələrə səfərlər təşkil olunur, tərəfdaşlıq müqavilələri və protokollar imzalanır.**

Belə işgüzar görüşlərdən biri Azərbaycan İlahiyyat İnstitutunun bu yaxınlarda Türkiyə Respublikasının Diyanət İşləri Başqanlığının dəvəti ilə Türkiyənin İstanbul və Ankara şəhərlərində olub. Səfər çərçivəsində bir sıra elmi, elmi-pedaqoji və dövlət müəssisələrində görüşlər keçirilib.

İstanbul Universitetinin rektoru prof. Mahmut Ak və İlahiyyat fakültəsinin dekanı prof. Murteza Bedirlə söhbətdə Azərbaycan İlahiyyat İnstitutu ilə İstanbul Universiteti arasında elmi-pedaqoji sahədə əməkdaşlığa dair razılıq əldə edilib və yaxın vaxtlarda iki ali təhsil müəssisəsi arasında əməkdaşlığa dair protokol imzalanması qərara alınıb. Azərbaycan İlahiyyat İnstitutundan məzun olan savadlı tələbələrin gələcəkdə magistratura və doktorantura səviyyələrində öz təhsillərini İstanbul Universitetində davam etdirmələri məsələsi də müzakirə olunub.

"29 Mayıs" Universitetində rektor prof. Mustafa Sinanoğlu, universitetin İdarə heyətinin sədri dr. Təyyar Altıkulaç və prorektoru prof. İlyas Çelebi ilə görüşdə Azərbaycan İlahiyyat İnstitutu və "29 Mayıs" Universiteti arasında elmi-pedaqoji əlaqələr, o cümlədən, qarşılıqlı akademik heyət və tələbə mübadiləsi, tədqiqat fəaliyyətlərinin təşkili və bu sahəyə dair tədris, təlim, tədqiqat məqsədilə elmi ədəbiyyatın ötürülməsi məsələləri müzakirə edilib. Görüşün sonunda iki ali məktəb arasında elmi və elmi-pedaqoji fəaliyyət sahələrində əməkdaşlığa dair Protokol imzalanıb.

Marmara Universitetinin rektoru prof. Erol Özvar azərbaycanlı qonaqları qəbul edib. Görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə Marmara Universiteti arasında elm və tədris mövzularında qarşılıqlı əməkdaşlığa dair Protokol imzalanıb. İlahiyyat fakültəsinin dekanı prof. Ali Köse və digər alimlərin iştirak etdiyi görüşdə qarşılıqlı əməkdaşlıq yolları müzakirə edilib. Sonra tədrisin və akademik fəaliyyətin təşkili ilə yaxından tanış olmaq məqsədilə auditoriyalarda tələbə və müəllim heyəti ilə müzakirələr aparılıb. İlahiyyat fakültəsi ilə Azərbaycan İlahiyyat İnstitutu arasında müəllim və tələbə mübadiləsi və digər sahələrdə əməkdaşlığa dair razılıq əldə olunub.

Ankara Universitetinin rektoru prof. Erkan İbişlə də görüş keçirilib. Azərbaycan İlahiyyat İnstitutu ilə bu ali təhsil müəssisəsi arasında elmi-pedaqoji əməkdaşlığa dair Protokol imzalanıb. Razılaşmaya görə tərəflər müəllim və tələbələrin mübadiləsinə, ortaq elmi araşdırma layihələri və müştərək maraq doğuran sahələrdə elmi görüşlərin təşkilinə şərait yaradacaqlar.

Ankara Universiteti İlahiyyat fakültəsinin dekanı prof. İsmail Hakkı Ünal, həmçinin tanınmış professorlar Halis Albayrak, Sönmez Kutlu və Mesut Okumuşun da iştirak etdikləri görüşdə iki ali təhsil ocağı arasında əməkdaşlıq yolları müzakirə olundu. Azərbaycandan gedən qonaqlar (AİI təmsilçiləri) Türkiyənin ən qədim tədris müəssisəsi olan Ankara Universitetinin İlahiyyat fakültəsi ilə təcrübə mübadiləsi etdilər. Bu məqsədlə tədrisin təşkili və elmi araşdırmaların aparılma üsulu ilə yaxından tanış olmaqçün auditoriyalara baş çəkib, fakültənin zəngin elmi kitabxanası ilə tanış oldular, həmçinin, magistratura və doktorantura səviyyələrində təhsil alan azərbaycanlı tələbələrlə də görüşdülər.

Türkiyəyə səfəri zamanı AİI heyəti İstanbul müftisi prof. Hasan Kamil Yılmazla görüşüb. Dinşünas alim İlahiyyat sahəsində ali təhsil alan tələbələrin məscidlərdə din xadimi kimi fəaliyyətə başlamazdan əvvəl onlar üçün peşə hazırlığı kurslarının təşkili zəruriliyindən bəhs edərək, bu sahədə Türkiyə təcrübəsi haqqında məlumat verib. Görüşdə, həmçinin xütbə və moizələrin hazırlanmasına, imamların dini və dünyəvi biliklərinin artırılmasına dair fikir mübadiləsi aparılıb.

Bundan başqa, İslam Tarix, İncəsənət və Mədəniyyət Araşdırmaları Mərkəzində (IRCİCA) mərkəzin direktoru dr. Halit Erenlə görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə sözügedən Mərkəz arasında birgə konfrans və simpoziumların təşkil olunması məsələsi müzakirə edilib. 2019-cu ildə IRCİCA və Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə "Qafqazda İslam" mövzusunda ikinci beynəlxalq simpoziumun keçirilməsinə dair ilkin danışıqlar aparılıb.

Azərbaycan İlahiyyat İnstitutunun nümayəndə heyəti Türkiyə Diyanət Vəqfi İslam Araşdırmaları Mərkəzi (İSAM) ilə tanış olub. Mərkəzin direktoru prof. Raşit Küçük, direktor müavini dr.Ali Hakan Çavuşoğlu İSAM-ın fəaliyyət istiqamətləri haqqında məlumat veriblər. Onlar elm sahəsində əldə etdiyi nailiyyətlərdən bəhs edərək, Azərbaycan İlahiyyat İnstitutu ilə əməkdaşlığa hazır olduqlarını bildiriblər. Görüşdə Azərbaycan İlahiyyat İnstitutu əməkdaşlarının elmi tədqiqatlar aparmaq üçün, xüsusilə, İSAM-ın zəngin elmi kitabxanasından faydalanmaq məqsədilə yay aylarında mərkəzə elmi ezamiyyətlərinin təşkili barədə də müzakirələr aparılıb.

Azərbaycan İlahiyyat İnstitutunun nümayəndə heyəti Türkiyə Respublikası Təhsil Nazirliyinin Din təhsili şöbəsində olub. Nazif Yılmaz Türkiyənin orta məktəblərində tədris edilən Din mədəniyyəti və əxlaq bilgisi fənninin, həmçinin imam-xətib məktəblərinin bütün dərsliklərinin onların şöbəsində hazırlandığını nəzərə çatdırıb, fəaliyyətləri haqqında qonaqlara ətraflı məlumat verib. Görüşdə Azərbaycan İlahiyyat İnstitutunun təhsildə seçilən tələbələrinin şöbə tərəfindən təşkil olunan yay kurslarında iştirakı məsələsi də müzakirə edilib.

Türkiyə Respublikası Diyanət İşləri Başqanlığında olan nümayəndə heyəti Xarici əlaqələr şöbəsinin müdiri Erdal Atalayla görüşüb. Azərbaycan İlahiyyat İnstitutunun müəllim və tələbələrinin təcrübə toplamaq üçün Başqanlığın dəstəyi ilə Türkiyənin müxtəlif ali tədris müəssisələrinə səfərlərinin, həmçinin müştərək layihələrin təşkilinə dair müzakirələr aparılıb.

Başqanlığın "Diyanet TV" televiziya kanalının əməkdaşları ilə görüş də yaddaqalan olub. Kanal haqqında məlumat verilib, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov "Xəbərlər" proqramına müsahibə verib.

Türkiyə Diyanət Vəqfinin direktor müavini Abdurrahman Çetin, habelə vəqfin bir neçə əməkdaşı ilə görüşdə qurumun fəaliyyəti ilə tanışlıq olub. Vəqflə AİI arasında elmi və mədəni sahədəki əməkdaşlıqlar müzakirə edilib.

Ankara Keçiören müftilyində hörmətlə qarşılanan azərbaycanlı ilahiyyat ziyalıları Keçiören müftisi Mehmet Şahinlə məscidlərin fəaliyyəti, xütbə və moizələrin hazırlanması kimi mövzularda Türkiyə təcrübəsi ətrafında müzakirələr aparıblar.

## SƏFİRLİKLƏRLƏ ƏMƏKDAŞLIQ

**Azərbaycan İlahiyyat İnstitutu öz fəaliyyətində beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir.** Bu məqsədlə müxtəlif səfirliklərin Azərbaycandakı rəsmi nümayəndələri ilə "Səfir saatı" layihəsi çərçivəsində mütəmadi olaraq görüşlər keçirilir. Belə ki, Sudanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri Abbas Mustafa Əhməd Abdallay, Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Nasir Əbdül Kərim, İndoneziyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Hüsnan bəy Fanani, Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin sədri Əhməd Sami Elaydi, İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi Azərbaycan İlahiyyat İnstitutunda tələbələrə seminar keçərək, ölkələrimiz arasında münasibətlərdən danışıblar. Bu da tələbələrimizin dünyagörüşünün artmasında, dünyəvi təsəvvürə malik olmasında da əhəmiyyətli rol oynayır.

İnstitut müxtəlif dövlətlərin Bakıdakı səfirlikləri ilə əməkdaşlıq edərək, onların elan etdikləri təqaüd proqramlarında AİI tələbələrinin və müəllimlərinin iştirakını təmin edir. Azərbaycanda fəaliyyət göstərən bir sıra təşkilat və diplomatik nümayəndəliklərlə (səfirliklər, mədəniyyət mərkəzləri və s.) müştərək tədbirlər keçirilir, beynəlxalq günlər qeyd olunur.

Hərtərəfli inkişaf etmiş ilahiyyatçılar nəslinin yetişdirilməsi üçün var-qüvvəmizlə çalışırıq Bu işdə bizə yardımçı olanların ümidlərini doğruldacağıq.

Səhifəni hazırladı:
**Şəms Bağırova**

# DƏDƏ ƏRƏB

Hekayə

**İmadın fermasının yaxınlığında yun çadırda kasıb bir ailə - Süleyman Veyd adlı kişi arvad-uşağı ilə birlikdə sakit həyat tərzi sürürdü.** Bədəvi ərəblərdən olan ailə dolanışığını qoyun sürüsü saxlamaqla çıxarırdı. Arada təzə otlaq axtara-axtara bir yerdən başqa yerə köçürdülər. Adamlar həm hörmət əlaməti kimi, həm də ondan bir qədər çəkindiklərinə görə Süleymana "Dədə ərəb" ləqəbi vermişdilər.

Ona qarşı ehtiyatlı münasibətdə nəhəng cüssəsi, enli kürəyi də az rol oynamırdı. Üzünün dərisi qupquru idi, elə bil dartılmışdı. İri ağ şalına bürünüb gedəndə kənardan baxana elə gəlirdi, dişi dəvə ləngər vurur. Ağzına tənbəki çubuğu alıb hansısa mahnını zümzümə eləyəndə, deyərdin yanında canavar ulayır. Özündən tez çıxırdı. Hirslənəndə vəhşi öküz kimi qızır, gözləri qıpqırmızı qızarırdı. Buna baxmayaraq, üzüyola adam idi. Onunla xoş davrananda quzuya dönür, üzündən səmimiyyət, mehribanlıq yağırdı.

Altı övlad atası olan Süleyman Veyd uşaqlarına candan bağlıydı. Balalarını şərdən qoruyurdu, onları anasayağı ağuşuna almışdı. Bir iti də vardı, adı Zəhəb idi. Onu çox sevərdi. Yoldan yarımcan vəziyyətdə tapdığı heyvana sığınacaq vermişdi, böyüyənə qədər qayğısına qalmışdı.

Gün gəldi, kənardan baxanda adamı vahiməyə salan qaraqıllı Zəhəb həm ailənin, həm də sürünün keşikçisinə çevrildi. Xasiyyətcə də elə yiyəsinə oxşayırdı. Sərtlik tələb olunanda sərtləşir, həlimlik lazım gələndə quyruğunu bulayırdı...

...Ferma sahibi İmad bəy arvadı, bir də tək oğlu Hamidlə kənd adamlarının "qəsr" adlandırdığı qədim evdə yaşayırdılar. Yeddiyaşlı Hamid ərköyün uşaq idi, valideynləri onu sonsuz məhəbbətlə sevirdilər. Günlərini qulluqçu Məbrukla bir yerdə ya quş ovlayıb balıq tutmaqla, ya da arx kənarındakı təpələrin üstündə it daşlamaqla keçirirdi.

Hamid daim itə sataşdığına görə Zəhəblə düşmən kimiydi. Oğlan itə, it də oğlana dərin ədavət bəsləyirdi. Hamidin gəlişini uzaqdan hiss edən kimi it qulaqlarını şəkləyir, havanı imsiləməyə başlayırdı. Uşaq yaxına gələndə isə it onu əvvəlcə çəpəki süzür, sonra bərkdən hürür, ardınca da dişlərini qıcırdıb hücuma hazırlaşırdı. Qulluqçuların qo-



ruduğu Hamid də Zəhəbi görən kimi daşa basır, it üstünə cumanda isə yanındakılara sığınırdı.

Bir gün yenə qulluqçu Məbrukla Hamid evdən çıxıb, adətləri üzrə təpəyə oynamağa getdilər. Elə bu vaxt Zəhəb arxa su içməyə gəlmişdi. Hamidin qəfildən atdığı daş başı su içməyə qarışmış Zəhəbi alnından tutdu. Başı qana boyanmış it vəhşi görkəmlə onu vurarnı axtarmağa başladı. Daş atanın Hamid olduğunu duymuşdu...

Hamid onda qulluqçu ilə birgə çətin çıxılan hündür təpənin arxasında gizlənmişdi. İt onların yerini yaxşı bilirdi, üstünə daş yağmasına baxmayaraq kəsik-kəsik hürəhürə təpəyə dırmaşmağa başladı. Uşaq təhlükənin yaxınlaşdığını duydu. O, əldən düşmüş, gücünüiradəsini itirmişdi. Boğuq səslə qışqıra-qışqıra Məbruku köməyə çağırdı, ancaq öz canının hayına qalan Məbruk çoxdan dabanına tüpürüb qaçmışdı.

Zəhəb qarşısında boş sahə gördü. Qələbə ümidi iti bir az da ürəkləndirdi. Təpənin başına çathaçatdaydı, uşaqla arasındakı məsafə azalmışdı. Gözləri qığılcım saçan, tükləri biz-biz duran itin yaxınlaşdığını görəndə Hamid tir-tir əsməyə başladı. Ancaq qəflətən hardansa canına təpər gəldi, təhlükə qarşısında duran əsgər kimi cəsarətləndi. Bu yandan it də hücuma hazır dayanıb, od saçan gözləriylə qəniminə baxmağa başladı. İki düşmən bir müddət beləcə üz-üzə dayanıb baxışdı. Qıraqdan baxanda bir cüt heykələ oxşayırdılar. Elə bil heykəltəraş bu heykəlləri yaradanda onların pis iş görməyə hazırlaşdıqlarını nəzərə çarpdırmağa çalışmışdı.

Zəhəbin bu hücumu onun son addımı oldu; onu qabaqlayan uşağın atdığı daş itin başını yardı. Zəhəb büdrəyib geri getdi. Toparlanıb düşməninə yenidən cummaq istəsə də, başından axan qan gözlərinin qabağına pərdə çəkdi. İt müvazinətini itirdi, təpənin başından aşağı yuvarlandı, elə orada da qaldı.

Hamid çaşqın-çaşqın gözünü itin cansız cəsədinə zillədi, sonra təpənin yamacına yaxılmış qana tamaşa eləməyə başladı. Təpənin başından ətəyinədək xal-xal iz qoymuş qan ləkələri yolunu azan adama bələdçi ola bilərdi. Qəfildən uşağı acizlik hissi bürüdü. Titrəyə-titrəyə yerə çökdü. Sifətini əcəl sarısı bürüdü.

* * *

Süleyman evinə qayıdanda çadırından gələn ah-nalə, fəryad səsi canına üşütmə saldı. Nəsə bədbəxt hadisənin baş verdiyi aydın idi. Tez özünü çadıra salıb soruşdu:

**- Nə olub?**

Kimsədən səs çıxmadı. Süleyman içəridəkiləri gözdən keçirdi: ailədə hamı sağ-salamat idi. Eşiyə çıxıb sürü otlayan yerə getdi, burada da gözünə kəm-kəsir dəymədi. Elə bu vaxt Zəhəbin adəti üzrə onu qarşılamağa çıxmadığını anladı.

Çadıra qayıdıb qışqırdı:

**- Zəhəb hardadır?..**

Yenə dillənmədilər. Yalnız uşaqlardan biri vaysınan kimi başını buladı. Artıq məsələdən agah olan Süleyman başqa sual verdi:

**- Ölüb, yoxsa öldürüblər?**

Arvadı sakitcə ona yaxınlaşıb itin başına gələnləri danışdı. O da dişlərini bir-birinə sıxıb qulaq asdı. Amma axıradək dinləməyə hövsələsi çatmadı. Qışqırdı:

- Atamın goru haqqı, o, Zəhəbi necə öldürübsə, mən də onu elə gəbərdəcəm...

* * *

Üstündən neçə ay keçmişdi. İtin başına gələni adamlar çoxdan unutmuşdular, bircə Dədə ərəb unuda bilmirdi. Gecə düşər-düşməz fermanın həndəvərinə sakitlik çökəndə qəsrin ətrafında canavar ovunun başına fırlanantək xəlvətcə dolaşır, hücuma fürsət axtarırdı.

Bir gecə yenə çadırından çıxdı, iri şalına bürünüb İmad bəyin qəsrinə sarı yollandı. Qucağında apardığı bıçaq kimi iti daşlar yerişini ağırlaşdırırdı. Sakitcə yaxınlaşıb qəsrin hündür hasarından quş kimi atıldı və pişik cəldliyi ilə hasarın o üzündəki bağa düşdü. Evin divarına söykənən qollu-qamətli bir ağaca dırmaşıb budaqların arasında gizləndi, ac qartal baxışlarıyla uşağın otağına göz qoymağa başladı. Ağac uşağın pəncərəsinə yaxın idi...

Beləcə, bir saata yaxın vaxt ötdü. Birdən Hamid gülə-gülə otağa girdi. Çox keçməmiş zala doğru qaçdı. Uşaq bir yerdə qərar tutmurdu. Süleyman da ağacın budaqları arasında tələş içində gözləyirdi.

Nəhayət, ana oğlunu gətirib yatağına uzatdı. Uşaq anasının boynunu qucaqlayanda qadın əyildi, övladını öpüb bağrına basdı və qulağına nəsə pıçıldadı. Sonra ana balasını qucağına alıb otaqda gəzişməyə başladı. Arabir dayanıb mehriban baxışlarla oğluna uzun-uzadı nəzər salır, onu öpdükcə-öpür, otaqda o baş-bu başa gəzişirdi...

Süleyman ana-balaya bir müddət maraqla tamaşa elədi. Ana övladının gülüşlərinə ən gözəl musiqi kimi qulaq asırdı, incə səslə "laylay" deyə-deyə otaqda gəzişirdi. Anasının boynundan yapışan uşaq zümzümənin avazı altında gözlərini yumdu...

Həmin an Süleymanı qəribə kədər bürüdü. Ürəyi sıxıldı. Özü də hiss eləmədən bayaqdan ətəyində saxladığı daşlar yerə töküldü...

Bir müddət sonra övladının yuxuya getdiyini ana da gördü. Hamidi ehmalca yatağına uzatdı. Üstünü örtüb alnından öpdü. Barmaqlarının ucunda otaqdan çıxdı... Üzü ay işığında aydın seçilən, yatmış mələyə oxşayan uşağı Süleyman da uzun-uzadı süzdü. Həyəcandan üzünə təbəssüm gəldi. Bu təbəssüm elə bil uşağın bayaqkı gülüşlərinə cavab idi.

Qəflətən Süleymanın ürəyinə elə bil xəncər sancdılar. Cəld ağacdan yerə tullandı. Hasarı aşıb çadırına sarı üz tutdu. Tutduğu işə görə içində özünə dərin nifrət oyanmışdı.

Çadıra çatan kimi özünü Hamidlə yaşıd övladının yanına verdi. Onu qollarının arasına alıb qucaqladı, öpdükcə-öpdü. Gözlərindən yaş süzülürdü...

Ərəb dilindən tərcümə edən:

**Şahin Ələsgərov**

***P.S.*** ***Hekayənin müəllifi Mahmud Teymur (1894-1973) Misirin görkəmli yazıçıdramaturqu və ədəbiyyatşünasıdır. Qahirədəki Ərəb Dili Akademiyasının həqiqi üzvü olub. Misirdə hekayə janrının əsasını qoyanlardan biridir.***

# Aİİ-nin ilk "Fəxri doktor"u



Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 10 yanvar 2019-cu il tarixdə "29 Mayıs" Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri, doktor Təyyar Altıkulaça "Fəxri doktor" diplomunun təqdimedilmə mərasimi olub.

Mərasimi giriş sözü ilə açan rektor Ceyhun Məmmədov Azərbaycanda din sahəsinə böyük diqqət və qayğı göstərildiyini, bu siyasətin əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmin siyasəti hazırda böyük uzaqgörənliklə və məqsədyönlü surətdə davam etdirdiyini vurğulayıb.

Təyyar Altıkulaç haqqında ətraflı məlumat verilib. İki qardaş ölkə arasında din sahəsində qarşılıqlı əlaqələrin inkişafında Təyyar Altıkulaçın böyük xidmətləri, tükənməz səyləri tədbir iştirakçılarının nəzərinə çatdırılıb. İnstitut rəhbəri Türkiyəyə səfərindən, orada keçirilən işgüzar və səmərəli görüşlərdən də bəhs edib.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov mərasimdə çıxış edərək bildirib ki, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Prezident cənab İlham Əliyevin Azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxlamasının göstəricisidir. Məruzəçi bu mərasimin təşkilini və Azərbaycan İlahiyyat İnstitutunun ilk fəxri doktorunun məhz Təyyar Altıkulaçın seçilməsinin təsadüfi olmadığını qeyd edib.

Mərasimdə İnstitut Elmi Şurasının 4 yanvar (Protokol №1) Qərarı ilə "29 Mayıs" Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri, doktor Təyyar Altıkulaça Azərbaycan İlahiyyat elminin inkişafında və Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə, Aİİ-nin "Fəxri doktor" diplomu təqdim edilib.

Daha sonra çıxış edən Təyyar Altıkulaç Azərbaycana bağlılığını, uğurları ilə hər zaman fəxr etdiyini, ona göstərilən etimaddan, diqqət və qayğıdan, qürur duyduğunu bildirib. Türkiyəli alim İlahiyyat fakültəsinin formalaşmasında 26 illik zəhmətini, yorulmaz fəaliyyətini mərasim iştirakçılarının nəzərinə çatdırıb T.Altıkulaç İlahiyyat fakültəsinin daha da inkişaf edib, İnstitut kimi fəaliyyət göstərməsini və ilk "Fəxri doktor" diplomunun məhz ona təqdim edilməsindən şərəf duyduğunu söyləyib.

Bakı Dövlət Universitetinin Ərəb dili filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyev ilahiyyat sahəsində layiqli şəxsiyyətlərin yetişməsində böyük rolu olan Təyyar Altıkulaçla bərabər çalışdıqlarını qeyd edərək onun əməyini yüksək qiymətləndirib. Yeni yaradılan ali təhsil ocağına böyük ümidlərlə qeyd edib ki, İnstitut Azərbaycanın İlahiyyat elminə layiqli töhfələr verəcəkdir.

Türkiyənin Azərbaycandakı Səfirliyinin Din işləri üzrə müşaviri Kamil Günəş Dr. Təyyar Altıkulaçı fəxri doktor adı alması münasibətilə təbrik edib. Bu şərəfli yolda alimə nailiyyətlər arzulayıb, həmçinin onun kimi şəxsiyyəti tanımaqdan məmnunluğunu ifadə edib.

Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin müdiri Kadir Bektaşoğlu öz çıxışında ilahiyyat sahəsində indiyə kimi görülən işlərin nəticəsini yüksək dəyərləndirdiyini qeyd edib.

Mərasimin sonunda Dr. Təyyar Altıkulaç ali təhsil müəssisəsində yaradılan şəraiti yüksək dəyərləndirərək, İnstitutun Fəxri qonaqlar kitabına ürək sözlərini qeyd edib.

**Aygün Şəhavətova**

İSTEDAD AXTARIŞINDA

# YARADICILIQ MÜSABİQƏSİ

İnstitutumuzda istedadlı və yaradıcı tələbələrin üzə çıxarılması, həmçinin tədqiqetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə davamlı olaraq tədbirlər təşkil olunur. Ötən il bu məqsədlə müxtəlif müsabiqələr həyata keçirilib.

Bu yarışmalardan biri 18 dekabr - Beynəlxalq Ərəb Dili Günü ilə əlaqədar olub. Azərbaycan İlahiyyat İnstitutu və Misir Ərəb Respublikasının Azərbaycandakı Mədəniyyət və Təhsil Mərkəzinin birgə layihəsi olan "Misir Respublikasının bir şəxsiyyəti haqqında" yazı işi müsabiqəsi keçirilib.

Münsiflər heyətinin qərarına görə qaliblər müəyyənləşdirilib. I kurs tələbəsi Aydan Babazadə "Misir Ənvər Sədatın hakimiyyəti illərində" mövzusu ilə birinci yerə, III kurs tələbəsi Nərmin Allahverdiyeva "Bir səhabə nümunəsi olaraq Səlahəddin Əyyubi kimdir?" mövzusu ilə II yerə, IV kurs tələbəsi Zeynəb İsmayılova "XIX əsrdə modernizmin ilk təmsilçilərindən Rifaə Təhtavi və onun Vətən anlayışı" mövzusu ilə III yerə layiq görülüblər. AİI-nin rektoru Ceyhun Məmmədov və Misir Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin İnzibati attaşesi Əməni Kənavi qalibləri təltif ediblər.

Mükafatların təqdim edilməsi Azərbaycan İlahiyyat İnstitutunun Beynəlxalq Ərəb Dili Gününə həsr olunmuş "Azərbaycanda ərəb dilinin tədrisində mövcud vəziyyət və perspektivlər" mövzusunda konfransda baş tutub. Qaliblər Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi tərəfindən sertifikat və İnstitut rəhbərliyi tərəfindən pul mükafatına layiq görülüblər.

Müsabiqə növbəti turda davam edib. Bu dəfə nəzm və nəsr sahəsində istedadlı gənclər üzə çıxarılıb. Şeir yaradıcılığında qələmini sınayan İnstitutun IV kurs tələbəsi Firudin Həmidli I yerin, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin III kurs tələbəsi Kamran İsayev II yerin, AİI-nin I kurs tələbəsi Tural İbrahimli isə III yerin sahibi olublar. Qaliblər sertifikat və pul mükafatlarına layiq görülüblər.

Bədii əsər yaradıcılığı üzrə müsabiqədə şeirləri ilə münsiflərin diqqətini cəlb edən I yerin sahibi Firudin Həmidli 1997-ci ildə Bakı şəhərində anadan olub. 2004-2015-ci illərdə S. Abdullayev adına orta məktəbdə oxuyub. İlahiyyat fakültəsinin IV kurs tələbəsidir. Ədəbi yaradıcılığa 2012-ci ildən başlayıb. Həm nəzm, həm nəsr sahəsində qələmini sınayıb. Şeirləri müxtəlif ədəbi portallarda dərc olunub. Azərbaycan Yazıçılar Birliyinin nəzdində fəaliyyət göstərən "III Gənc Ədiblər Məktəbi"nin məzunudur. Tərcümə sahəsində də qələmini sınayıb və bu onun yaradıcılığında keyfiyyətli alınır. Müxtəlif xarici dillərdən Azərbaycan dilinə tərcümələr edir. Firudin Həmidlinin müsabiqədə bəyənilən şeirlərindən birini təqdim edirik.

***Bu rəngi hardansa xatırlayıram...***  
***Yalın bir yağışın pıçıltısıtək***  
***Keçir sükutumun küçələrindən...***

***Narın təbəssümlə donuq dayanmış,***  
***Bu rəng niyə dinmir, niyə danışmır***  
***Pas atıb korşalmış gecələrimdə?...***

***Bu rəngi hardansa xatırlayıram...***  
***Hansısa baharda mənimdi bu rəng,***  
***Hansısa payızda qayıtdı göyə...***

***İlahi, ilahi!***  
***Bu, odur yoxsa?***  
***Odur, baxışından tanıyıram mən,***  
***Səmanın bağrından döndü geriyə...***

✍ **Ş.Bağırova**

*Aşiqəm, cəmalüllaha,*  
*Qəlbim dedi: Allah, Allah.*  
*Aşiqəm, döndüm Məcnuna,*  
*Qəlbim dedi: Allah, Allah.*

***

*Sinəm yarıldı, oldu qan.*  
*Dedi: Eşq atəşində yan.*  
*Mən ağladım zaman-zaman.*  
*Qəlbim dedi: Allah, Allah.*

***

*Ölmədən əvvəl bitmişəm.*  
*Eşq şərbətini içmişəm.*  
*Sirlər dənizin keçmişəm.*  
*Qəlbim dedi: Allah, Allah.*

***

*İsgəndərəm, aşiq oldum.*  
*Batin aləminə daldım.*  
*Mən rəbbimə təslim oldum.*  
*Qəlbim dedi: Allah, Allah.*

**İsgəndər İsgəndərov,**  
I kurs tələbəsi

# "Hərəyə bir kitab" aksiyası

**A.Gertsen: "Kitab nəsillərin bir-birinə vəsiyyətidir"**



Azərbaycan İlahiyyat İnstitutu (AİI) dini fəaliyyət sahəsində peşəkar mütəxəssis və elmi kadrların hazırlanması ilə yanaşı, tələbələrin dünyagörüşünün formalaşdırılması, mütaliə, sosial məsuliyyət vərdişlərinin artırılması, gənclərin intellektual və mənəvi dünyasının zənginləşdirilməsi, o cümlədən, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi məqsədi ilə mütəmadi olaraq müxtəlif maarifləndirici və sosial yönümlü layihələr həyata keçirir.

Bu layihələr çərçivəsində İnstitutun Tədris şöbəsi tərəfindən 2018-ci il noyabr ayının 1-dən 30-na kimi davam edən "Hərəyə bir kitab" adlı aksiya təşkil edilib. Aksiyanın məqsədi gənclərdə mütaliəyə marağın artırılması, sosial məsuliyyətin gücləndirilməsi, eyni zamanda, onlara mərhəmət hissinin aşılanması olub. Maksim Qorkinin sözləri ilə desək, "Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlığı sevgisi ilə dolduracaq".

İctimaiyyətə açıq keçirilən aksiyada İnstitutun əməkdaşları və tələbələri ilə yanaşı, ölkədə fəaliyyət göstərən digər qurum və təşkilatların nümayəndələri də yaxından iştirak ediblər. Belə ki, "Yazarlar" jurnalının təsisçisi və Baş redaktoru Zaur Ustacın şəxsi kitabxanasından 120 adda kitab təqdim etməsi aksiyaya marağı daha da artırıb. İnstitutun kitabxanasında xüsusi ayrılmış guşəyə bədii və elmi ədəbiyyat nümunələri, nağıl kitabları, lüğətlər, dərsliklər, test nümunələri, həmçinin tibb, hüquq, təbiət, riyaziyyat, fizika, kimya və digər elmlərə dair, təxminən, 300-dən çox müxtəlif adda ədəbiyyat toplanıb.

Toplanan ədəbiyyatın bir qismi İlahiyyat İnstitutu tələbələrinin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə "Bakı SOS Uşaq Kəndi"nə ziyarəti zamanı buranın balaca sakinlərinə - valideyn himayəsindən məhrum olmuş uşaqlara paylanıb, digər qisminin yaxın zamanda Qocalar evinə çatdırılması nəzərdə tutulub. Bizi gah güldürüb, gah ağladan kitabın sinəsində min aləm var. F.Bekon yazır: "Kitablar zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmiləridir".

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu bu cür layihələri mütəmadi olaraq keçirməyi planlaşdırır.

✍ **Zərifə Əliyeva**

# BUNLARI BİLMƏK MARAQLIDIR



Ən böyük kitab XVII əsrdə nəşr olunmuş və Berlin kitabxanasında olan coğrafiya atlası sayılır (hündürlüyü 2 metr, eni 1 metr).

* * *

Dünyada ilk özəl miniatür kitab muzeyi 2002-ci il aprelin 2-də Bakı şəhərində fəaliyyətə başlayan Miniatür kitab muzeyidir.

* * *

Göz yaşlarının tərkibində olan lizosim maddəsi təbii antibiotikdir. Bu maddə gözləri infeksiyalardan qoruyur.

* * *

Heç bir kağız parçasını yeddi dəfədən artıq ikiyə qatlamaq mümkün deyil.

* * *

Orta yaşlı bir adamın ürəyi dəqiqədə təxminən 72 dəfə, gün ərzində 100.000 dəfə, həyatı ərzində isə təxminən 2.5 milyard dəfə döyünür.

* * *

Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb.

* * *

Dünyanın ən sürətli böyüyən bitkisi bambuk ağacıdır. Ağac gündə 90 santimetr uzanır.

* * *

İnsanın saçı üç kilo ağırlıq qaldıra biləcək gücdədir.

* * *

Dünyanın heç bir dilində dizin arxa hissəsinin adını verən bir söz yoxdur.

* * *

Palıd qozasının yetişməsi üçün 50 il vaxt lazımdır.

* * *

İkinəfərlik velosipedi 1891-ci ildə əlləri olmayan Çarlz Trip və ayaqları olmayan Eli Bouen ixtira etmişdir.

* * *

Napoleon aylurofobiyadan (pişiklərdən qorxma) əziyyət çəkirdi.

✍ **Elnarə Ağaoğlu**


Təsisçi: AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU • AZERBAIJAN INSTITUTE OF THEOLOGY • 2018

**Baş redaktor:** Ceyhun Məmmədov

**Redaktor:** Rəhilə Misirxanlı

Qeydiyyat nömrəsi: 4212

VÖEN: 1305654461

**Telefon:** (012) 510-65-45

**Email:** ilahiyyat-news@mail.ru

**Ünvan:** Əhməd Cəmil, 41A, Bakı

Qəzet "İLAHİYYATÇI"nın kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap edilir.

Çapa imzalanıb: 28.01.2019-cu il

Sayı: 1000, İndeks: AZ1141, Sifariş: 361

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.